Günəş Şərqdən doğur!

№ 121 (5402), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az

10 iyul 2021-ci il (şənbə)



## Yoluxma sayı kəskin artdı

Son sutkada 174 nəfər yoluxub, 2 nəfər vəfat edib

(Səh.8)




## Qəbul imtahanlarının ikinci mərhələsi bir dəfə keçiriləcək

Bununla bağlı Təhsil Nazirliyi və Dövlət İmtahan Mərkəzi birgə məlumat yayıb

Məlum olduğu kimi, Dövlət İmtahan Mərkəzi tərəfindən iyul ayı ərzində ali təhsil müəssisələrinə qəbul imtahanlarının ikinci mərhələsinin təşkil olunması nəzərdə tutulub.

(səh.2)

## Müharibə təhlükəsi qaçılmazdır



Azərbaycanın sülhməramlıları Əfqanıstandan təcili çıxarılmalıdır

(səh.8)

# Xarici diplomatlar Şuşanı gəzdilər



## Qonaqlar Pənahəli xanın sarayı, Mehmandarovların malikanə kompleksi və Qazançı kilsəsində olublar

(səh.2)

# Rusiya Paşinyana Xankəndiyə getməyə qadağa qoyub

Bu onu göstərir ki, Azərbaycanın yavaş-yavaş təsiri öz işini görür



(səh.5)

### Metyu Brayza: "Aİ komissarının açıqlaması Azərbaycana verilən əhəmiyyəti göstərir"

(səh.2)

### Minaya düşərək ayağını itirən şəxsdən xəbər var

Xəstənin paytaxta göndərilməsi nəzərdə tutulub

(səh.3)

### Tarixçi-alim təhsil haqlarına üsyan etdi

"Papaq altda" oğullar var, istedadlı, savadlı..."

(səh.8)

### Arxayın olmayın, pandemiya hələ bitməyib

Epidemiya yenidən alovlana və dördüncü dalğa baş verə bilər

(səh.9)

# Xarici diplomatlar Şuşanı gəzdilər

## Qonaqlar Pənahəli xanın sarayı, Mehmandarovların malikanə kompleksi və Qazançı kilsəsində olublar

**Azərbaycanda akkreditə olunmuş 50-yə yaxın diplomatik korpus nümayəndələrinin və beynəlxalq təşkilatların Azərbaycandakı təmsilçiləri Şuşada olublar.**



Diplomatlar ermənilərin işğal zamanı məsciddə törətdiyi dağıntılarla tanış olublar.

Diplomatik korpusun nümayəndələri Şuşa şəhərinə səfər çərçivəsində Pənahəli xanın sarayının qalıqları olan əraziyə, Mehmandarovların malikanə kompleksinə baş çəkib, Qazancı kilsəsində aparılan təmir-bərpa işləri ilə tanış olublar.

Əvvəlcə diplomatlara Pənahəli xanın sarayının tarixi haqqında məlumat verilib, işğal dövründə sarayın erməni vandallığına məruz qaldığı bildirilib. Qonaqlar sarayın qalıqlarına baxıb, erməni vəhşiliyinin izlərinin şahidi olublar.

Mehmandarovların malikanə kompleksində diplomatlara burada törədilən dağıntılar barədə məlumat verilib. Bildirilib ki, müharibə dövründə buraya da ciddi ziyan dəyib, dağıntılar törədilib. Hazırda kompleks bərpa olunur.

Sonra diplomatik korpusun nümayəndələri Qazancı kilsəsində olublar. Burada onlara bildirilib ki, işğaldan azad olunan ərazilərimizdə Azərbaycan dövləti tərəfindən həyata keçirilən nəhəng yenidənqurma işləri, o cümlədən Şuşada aparılan bərpa və quruculuq prosesi Şuşanın orijinal memarlıq üslubuna uyğun olaraq gerçəkləşdirilir. Həyata keçirilən işlər çərçivəsində Qazançı kilsəsi də bərpa edilir.

*Qeyd edək ki, Qazançı kilsəsi Şuşa şəhərinin yuxarı hissəsində yerləşir. Kilsənin 1868-1887-si illərdə qədim zərdüşt məbədi üzərində inşa olunduğu bildirilir. Kilsə quruluş baxımından 4 yarımdairəvi çıxışdan ibarətdir. Kilsənin daxili xüsusi memarlıq bəzəkləri olmadan, yonulmuş yerli daşlarla üzlənib. İşğal altındakı torpaqlarımızda olan digər abidələr kimi, bu kilsə də erməniləşdirilib.*



## Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 6,2 milyon manat ayrılıb

**Prezident İlham Əliyev Bakı şəhərinin Xətai rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Bakı şəhərinin Xətai rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.1.14-cü yarımbəndində göstərilmiş məbləğin 6,2 milyon (altı milyon iki yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

Maliyyə Nazirliyi sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin, Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

## Ərdoğan: "Türkiyəyə çirkin hücumlar edilir"



**"Bəzi xarici qüvvələr, dairələr Türkiyəni qarşılaşdığı çirkin həmlələri dəf etdiyinə, özünümüdafiə reflekslərini işlətdiyinə görə qınayırlar. Görəsən onlar özləri ölkəmizin üzləşdiyi hücumlara oxşar durumla qarşılaşsaydılar, necə reaksiya verərdilər?"**

"Report" xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Diyarbakır şəhərində qatıldığı açılış mərasimində çıxışı zamanı deyib.

"Heç bir şübhə yoxdur ki, Türkiyəyə edilən həmlələrlə qarşılaşan hər bir dövlət eyni reaksiyanı verərdi", - o vurğulayıb.

## Metyu Brayza: "Aİ komissarının açıqlaması Azərbaycana verilən əhəmiyyəti göstərir"



**"Avropa İttifaqı qonşuluq və genişlənmə komissarı Oliver Varhelyinin Azərbaycanı güclü tərəfdaş olaraq dəyərləndirməsi, əməkdaşlığı daha da artırmaq istədiklərini bildirməsi Aİ-nin uzun müddətdir Azərbaycana verdiyi yüksək əhəmiyyəti əks etdirir".**

Bunu "Report"a ABŞ-ın Atlantik Şurası (Atlantic Council) beyin mərkəzinin böyük elmi işçisi, beynəlxalq ekspert, Azərbaycandakı keçmiş səfir Metyu Brayza Aİ rəsmisinin Bakıdakı açıqlamalarına münasibət bildirərkən deyib.

Onun fikrincə, münaqişədən sonrakı dövrdə Zəngəzur dəhlizinin reallaşması halında Azərbaycanın Aİ üçün əhəmiyyəti bir qədər də arta bilər.

"Türkmənistandan Azərbaycan vasitəsilə təbii qaz da nəql edilməyə başlasa, ölkənizin tranzit dəhlizi olaraq əhəmiyyəti daha da artacaq" - deyə, amerikalı ekspert qeyd edib.

# Qəbul imtahanlarının ikinci mərhələsi bir dəfə keçiriləcək






## Təhsil Nazirliyi və Dövlət İmtahan Mərkəzi birgə məlumat yayıb

Məlum olduğu kimi, Dövlət İmtahan Mərkəzi tərəfindən iyul ayı ərzində ali təhsil müəssisələrinə qəbul imtahanlarının ikinci mərhələsinin təşkil olunması nəzərdə tutulub.

**"Şərq" xəbər verir ki, bununla bağlı Təhsil Nazirliyi və Dövlət İmtahan Mərkəzi birgə məlumat yayıb.**

Məlumatda bildirilir ki, ali təhsil müəssisələrinə qəbul prosesi yalnız imtahanın keçirilməsi ilə məhdudlaşmır və bir-biri ilə sıx bağlı olan müxtəlif mərhələlərdən ibarətdir.

Belə ki, imtahanlarda yazılı cavab verməK tələb olunan açıq tipli tapşırıqların yoxlanılmasına 10-14 gün vaxt sərf olunur, imtahan nəticələri elan olunduqdan sonra apellyasiya prosesi, daha sonra ixtisas seçimi mərhələsi, boş qalan plan yerlərinə yenidən ixtisas seçimi, ali təhsil müəssisələrinə qəbul olunan abituriyentlərin qeydiyyatı və digər mərhələlər kifayət qədər vaxt tələb edir.

Yuxarıda qeyd olunanlar nəzərə alınaraq Dövlət İmtahan Mərkəzi və Təhsil Nazirliyinin birgə razılığına əsasən bu il I-IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanlarının ikinci mərhələsinin bir dəfə keçirilməsi ilə bağlı qərar qəbul olunub.

Ali təhsil müəssisələrinə qəbul olmaq üçün ərizə verən abituriyentlər III ixtisas qrupu üzrə iyulun 14-də, II ixtisas qrupu üzrə iyulun 15-də , I və IV ixtisas qrupları üzrə isə 27-28 iyul tarixlərində keçiriləcək imtahanlarda iştirak etməlidirlər.



## Baydenlə Putin arasında telefon danışığı olub

**ABŞ və Rusiya prezidentləri arasında telefon danışığı olub. "TASS" xəbər verir ki, bu barədə Ağ Ev məlumat yayıb.**

Telefon danışığında prezidentlər ABŞ-Rusiya zirvəsindən sonra Suriyaya sərhədlərarası humanitar yardımın BMT Təhlükəsizlik Şurasında bərpa edilməsi barədə yekdilliklə qərar qəbul edilməsini və hər iki ölkənin heyətlərinin birgə işlərini yüksək qiymətləndiriblər.

## Baş pediatr: "Risk qrupuna aid uşaqlara COVID-19 vaskini vurula bilər"

**"Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən "Pfizer" peyvəndinin 12 yaş üstü uşaqlara vurula bildiyi təsdiqlənib".**

"Report" xəbər verir ki, bunu Səhiyyə Nazirliyinin baş pediatrı Erkin Rahimov deyib.

Onun sözlərinə görə, digər peyvəndlərdə tədqiqatlar aparıldığı üçün onların istifadəsi ilə bağlı dəqiq məlumat yoxdur.

"İnanıram ki, peyvəndlərin gələcəkdə bir neçəsinin də uşaqlara vurula bilməsi təsdiqlənəcək. Risk qrupuna aid uşaqlara COVID-19 vaskini vurula bilər. Bunlar xroniki xəstəliyi, böyrək, ürək çatışmazlığı və s. xəstəliklərdir. Artıq bəzi uşaqlarda xəstəliyin ağır nəticələri olduğuna görə onların da peyvənd olunması lazımdır", - o bildirib.

# Səsimiz hər yerə çatacaq

## Avropa İttifaqı postmüharibə dövrünə hazırdır

**"Avropa İttifaqı Bakı ilə münasibətləri postmüharibə dövrünün ruhuna və tempinə uyğun şəkildə qurmaqda maraqlıdır". Bunu siyasi şərhçi, jurnalist Aqşin Kərimov deyib. Ekspert bildirib ki, Aİ əlaqələrin möhkəmlənməsi üçün mövqeyini Azərbaycanın maraqları ilə uzlaşdırmaq zərurətini dərk edir:**



Brüssel-Bakı münasibətləri keyfiyyətcə yeni mərhələyə qədəm qoyur

"Bunun bir neçə səbəbi var. Birincisi, Zəngəzur dəhlizi Avropa üçün də unikal iqtisadi imkanlar təqdim edir. Çünki Zəngəzur dəhlizi Avropa İttifaqının əsas ticarət partnyoru olan Çinlə iqtisadi əlaqələrin optimallaşdırılması üçün orta dəhliz əhəmiyyətinə malikdir. Azərbaycan həm də Xəzər dənizi ilə Qara dəniz arasında əlaqələrin inkişafında böyük önəm kəsb etdiyindən Avropa İttifaqı bu coğrafiyadakı nəqliyyat-tranzit infrastrukturunu yüksək qiymətləndirir, ticarət marşrutlarının diversifikasiyanı nəzərdən keçirir. İkincisi, Qarabağda yenidənqurma və bərpa işləri Avropa İttifaqı üçün yeni coğrafiyada əlverişli sərmayə imkanları təqdim edir. Üçüncüsü, Azərbaycanla Avropa İttifaqı arasında Tərəfdaşlıq Prioritetləri haqqında yekun razılaşmanın imzalanması gözlənilir, detallar açıqlanmasa da, bu, tərəflər arasında əlaqələrin bütün sferalar üzrə şaxələnməsinə gətirib çıxaran sənəddir. Dördüncüsü isə Avropa İttifaqı Azərbaycan təbii qazı Avropa bazarlarına girib və bu, Avropa üçün yeni iqtisadi fürsətlər təqdim edir".

**Analitik bəyan edib ki, Avropa İttifaqı Bakı ilə münasibətlərin xarakterini dayanıqlı etmək üçün ideyaların praktiki əhəmiyyətinə və icrasına diqqət yetirir:** "Bunun üçün bəzi detallar isə razılaşdırılmalıdır. Avropa İttifaqının qonşuluq və genişlənmə üzrə komissarı Oliver Varhelyinin Cənubi Qafqaz turnesi çərçivəsində iyulun 8-də Azərbaycana səfəri də həmin detalların dəqiqləşdirilməsi baxımından diqqət çəkir. Yuxarıda sadaladıqlarımız məsələlərin keçirilən görüşlərdə təfərrüatı ilə müzakirə edilməsi şübhəsizdir. Bu səfər Brüssel-Bakı münasibətlərinin keyfiyyətcə yeni mərhələyə keçidinin göstəricisidir, lakin Bakının da şərtləri var. Avropa İttifaqı postmüharibə periodunda konstruktiv mövqe nümayiş etdirməli və regionda sülhə, təhlükəsizliyə töhfəsini əsirgəməməlidir. Avropa təsisatlarının Azərbaycana qərəzli münasibətlərinə son qoyulmalıdır. Ermənistana münasibətdə düzgün siyasət yürüdülməli və revanşizmə rəvac verən istənilən diplomatik bəyanatlar aradan qaldırılmalıdır. Oliver Varhelyinin Bakıya səfəri zamanı keçirdiyi görüşlərdə qırmızı xətt kimi keçən fikir budur: - Avropa İttifaqı sülhə töhfə verməyə və Qarabağdakı yenidənqurma işlərində iştiraka hazırdır. Nəticə odur ki, Avropa İttifaqı Azərbaycanla əlaqələri inkişaf etdirmək əzmini nümayiş etdirir və Azərbaycanın regionda oynadığı böyük rolu yüksək qiymətləndirir. Avropa İttifaqı Azərbaycanla əməkdaşlıq əlaqələrini güclü tərəfdaşlıq səviyyəsinə qaldırmaq niyyətindədir".

**İsmayıl Qocayev**

## Qonaqların sayı çox olur

### DİN toylarla bağlı vətəndaşlara bir daha xəbərdarlıq etdi



**Daxili İşlər Nazirliyi (DİN) toylarla bağlı vətəndaşlara xəbərdarlıq edib.**

DİN-in Mətbuat xidmətindən "Şərq"ə daxil olan xəbərdarlıqda deyilir:

"Məlum olduğu kimi, Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına görə bu il iyul ayının 1-dən qapalı məkanlarda 150, açıq havada isə 50 nəfərin iştirakı ilə toy şənliklərinin keçirilməsinə icazə verilib. Lakin aparılan yoxlamalar nəticəsində müəyyən edilib ki, bəzi hallarda qeyd olunan qərardan irəli gələn tələblər pozularaq toylarda icazə verilən saydan artıq qonaqlar iştirak edir, eləcə də mərasimlərə qatılan şəxslərin əksəriyyətinin vaksinasiya olunmalarını təsdiq edən COVID-19 pasportu hələ də yoxdur.

Daxili İşlər Nazirliyi övladına toy etməyi planlaşdıran vətəndaşlarımızı öncədən təbrik edir, eyni zamanda onlardan təşkil edəcəkləri toy və digər şənlik mərasimləri zamanı koronovirus pandemiyası ilə əlaqədar tətbiq edilən bütün qərarlara, o cümlədən dəvət edilən qonaqların say məhdudiyyətinə, onların COVID-19 pasportuna malik olmaları tələbinə ciddi nəzarət və riayət etməyi xahiş edir.

Əks təqdirdə, koronavirus pandemiyasına qarşı mübarizə tədbirlərinə nəzarəti həyata keçirən aidiyyəti orqanlar qanunvericiliyin tələblərinə uyğun olaraq cəza tədbirləri görmək məcburiyyətində qalacaqlar".

**Kənan**



# Minaya düşərək ayağını itirən şəxsdən xəbər var

## Xəstənin paytaxta göndərilməsi nəzərdə tutulub

**İyulun 8-də Füzuli rayon sakinləri Nuru Nuriyev və Elnur Həşimov nəzarət postlarından kənar qanunsuz yollarla rayonun işğaldan azad edilmiş Aşağı Əbdürrəhmanlı kəndi istiqamətində piyada hərəkət edərkən minalanmış ərazidə piyada əleyhinə minaya düşüblər.**

Nuru Nuriyev hadisə yerində həyatını itirib. Elnur Həşimov isə minaya düşdüyü ərazidən çıxarılaraq, Füzuli rayon Mərkəzi xəstəxanasına gətirilib. Onun vəziyyəti hazırda da orta ağır olaraq qalır. Bu barədə onun həkimi, Füzuli rayon Mərkəzi Xəstəxanasının cərrahiyyə şöbəsinin müdiri Əhəd Məmmədov Sputnik Azərbaycana açıqlamasında bildirib.

O deyib ki, xəstə gətirilərkən huşsuz vəziyyətdə olub: "Xəstə ötən gün axşam saat 18 radələrində ağır vəziyyətdə xəstəxanamıza daxil olub. İlkin tibbi yardımlar göstərilib. Xəstəxananın cərrahiyyə şöbəsində dərhal hazırlıqlar görülərək, xəstə cərrahiyyə əməliyyatına götürülüb. Onun sol baldırının orta 3-də biri amputasiya edilib. Hazırda xəstə palatada müalicəsini davam etdirir".

Əhəd Məmmədov həmçinin qeyd edib ki, minaya düşərək ayağını itirmiş Elnur Həşimovun vəziyyəti ağır olduğundan onun paytaxta göndərilməsi nəzərdə tutulur:

"Xəstəyə bütün lazımi yardımlar edilib. O, cərrahi əməliyyat olunub. Buna baxmayaraq, vəziyyəti orta ağır olaraq qalır. O səbəbdən də biz onun müalicə və müayinəsinin paytaxtda davam etdirilməsini məsləhət bilmişik. Odur ki, ya bu gün, ya da sabah xəstə paytaxta göndəriləcək.

*Xatırladaq ki, minaya düşən şəxslərdən biri Nuru Nuriyev elə hadisə yerində həlak olub. Digər şəxs - Elnur Həşimov isə ayağını itirib. Polislər onu da ərazidən təhlükəsiz formada çıxarıb xəstəxanaya təhvil veriblər.*

# Rusiya sərhədlərin müəyyənləşdirilməsində problem yaratmayacaq

## "Moskva indiki məqamda Azərbaycanla insidentdə maraqlı olsun"

**İyulun 6-9-da Bakı şəhərində xarici işlər nazirinin müavini, Prezidentin sərhəd və Xəzər dənizi məsələləri üzrə xüsusi nümayəndəsi Xələf Xələfovun və Azərbaycan-Rusiya birgə demarkasiya Komissiyasında Rusiya nümayəndə heyətinin rəhbəri Amir Bilyaletdinovun rəhbərliyi ilə doqquzuncu iclas keçirilib.**

Xarici İşlər Nazirliyindən verilən məlumata görə, iclasda demarkasiya prosesinin davam etdirilməsi ilə bağlı məsələlər müzakirə edilib. Həmçinin, çöl demarkasiya işlərinin aparılması və təşkil edilməsi üçün lazimi olan sənədlər təsdiq edilib. Yaxın günlərdə sərhəd nişanlarının quraşdırılmasına başlanacaq. Demarkasiya işlərinin aparılmasi zamanı hər iki dövlət tərəfindən işlərin konstruktiv və ardıcıl həyata keçirilməsi qeyd olunub. Görüş mehriban qonşuluq və konstruktiv dialoq ruhunda keçirilib. Birgə Komissiyanın növbəti iclası Rusiya Federasiyası ərazisində keçiriləcək.



**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev "Şərq"ə deyib ki, Azərbaycan-Rusiya birgə demarkasiya Komissiyasının iclaslarının hər iki tərəf üçün faydası var. Politoloqun sözlərinə görə, Azərbaycanla Rusiya arasında dövlət sərhədinin demarkasiya və delimitasiya prosesində ciddi problemlə qarşılaşmışıq:** "Yalnız Qusar rayonu ərazisində çay yatağının dəyişməsi ilə bağlı problem var. Əvvəl sərhəd çay yatağı ilə keçirdi, sonra yataq yerini dəyişdi və Azərbaycan tərəfi yerdəyişmə ilə bağlı məsələ qaldırdı. Amma Rusiya buna qarşı çıxmadı. Danışıqlar davam edir. İnanmıram ki, Moskva indiki məqamda Azərbaycanla insidentdə maraqlı olsun. Əslində bizə də Rusiya ilə münasibətləri korlamaq sərf etmir. Bütün hallarda Rusiya bu və ya digər formada Azərbaycan-Ermənistan sərhədinin formalaşmasında müsbət rol oynaya bilər. Təbii, Moskvanın da öz maraqları var. Kreml rəhbərliyi anlamalıdır ki, Azərbaycan şimal qonşusu ilə səmimi tərəfdaşlıq və əməkdaşlıq edir. Bu səmimiyyət pozularsa, Azərbaycan öz iradəsini ortaya qoya biləcək bir dövlətdir. Dəfələrlə bunu sübut edib. Odur ki, Azərbaycanla Rusiya arasında sərhədlərin dəqiqləşdirilməsində hansısa problemlə üzləşəcəyimizi zənn etmirəm. Artıq Xəzər dənizinin hidrogen ehtiyatlarının bölgüsü çox uğurla başa çatıb. Sərhəd məsələsində hansısa qaranlıq məsələ yoxdur".

**İsmayıl Qocayev**

# "Açıq danışmalıyıq, kimdənsə çəkinməməliyik"

## Millət vəkili: "Biz tarixi torpaqlarımıza iddialıyıq və yaxşı edirik"

Dünən Milli Məclisin növbədənkənar sessiyasının sonuncu iclası keçirilib. İclasın gündəliyinə daxil edilmiş 13 qanun layihəsi müzakirə edilərək üçüncü oxunuşda qəbul olunub. Deputatlar cari məsələlərlə bağlı da çıxışlar ediblər.



**"Təkcə Zəngəzur deyil, İrəvan da, Dərələyəz də Azərbaycanın tarixi torpağıdır"**

**"COVİD pasportu ətrafında ciddi müzakirələrə, əsaslandırmalara ehtiyac var"**

**Millət vəkili Nigar Arpadarai deyib ki, COVİD pasportlarının tətbiqinin müzakirələrdən kənar qalması təəssüf doğurur.** Çünki bunun tətbiqi uzunmüddətli qərardır və vətəndaşların həyatına birbaşa təsiri var: "Hazırda xroniki xəstəlikləri, allergiyası olan, yaxud şəxsi qərarı ilə peyvənd olunmayanlar sağlamlıq mərkəzlərinə girə bilmirlər. Bu, nə dərəcədə doğrudur? Heç kəsin şübhəsi yoxdur ki, dövlət insanların sağlamlığını düşünür. Amma müzakirə olunmadan edilən tətbiqlər əlavə bürokratiyaya çevrilir. Hesab edirəm ki, bunun əlavə əsaslandırması olmalıdır. İnsanlara məlumat verilməlidir ki, təkrar yoluxma halı neçə faizdir. Apardığım araşdırmaya görə dünyada təkrar yoluxma halları 1 faizdən azdır".

**"İndi intellekt və siyasi mədəniyyət zamanıdır"**

**Deputat Razi Nurullayev bildirib ki, adını siyasətçi qoyan bəziləri "Zəngəzur olmayacaq, Xankəndi bizim deyil, niyə dayandıq, niyə erməniləri tam qovmadıq" və s. fikirlər səsləndirirlər.** Parlament üzvü deyib ki, bu şəkildə pafosla danışanların heç biri 27 sentyabrdan 28-nə çıxa bilməzdi: "Yekə-yekə danışmağa nə var ki? Belə çıxır ki, Paşinyanla elələrinin düşüncəsi arasında fərq yoxdur. Elələrinin düşüncələri 90-cı illərin əvvəllərindən bu günə dəyişməyib".

Deputat təklif edib ki, yeni siyasi qüvvələr güclənməlidir, siyasi mədəniyyət formalaşmalıdır: "Biz bu yolda addımlayırıq və ümidvaram ki, çox şey fərqli olacaq. Bütün dünyada hər kəs güclə, intellektlə, məntiqlə hesablaşır. Prezidentin bu sahə üzrə təyin etdiyi məmur var - Ədalət Vəliyev. Siz hələ görün intellektiniz, dünyagörüşünüz, savadınız onunla danışmağa bəs edirmi? 15 dəqiqə ərzində mat və pat olacaqsınız. Siyasət ərköyün uşaq deyil ki, nazına dözəsən. İndi intellekt və siyasi mədəniyyət zamanıdır".

**"Şərqi Zəngəzur iqtisadi rayonu Ermənistana qarşı ərazi iddiası anlamına gəlməməlidir"**

**Millət vəkili Tahir Kərimli vurğulayıb ki, Prezidentin iqtisadi rayonların yeni bölgüsü haqqında imzaladığı Fərmandan sonra sosial şəbəkələrdə müzakirələr aparılır:** "Guya, bu, Ermənistana qarşı ərazi iddiasıdır. Mən bunu qətiyyətlə rədd edirəm. Yunanıstan və Makedoniya 27 il ad mübahisəsi apardılar. Nəticədə Keçmiş Yuqoslaviya Respublikası Makedoniyanın adı Şimali Makedoniya olaraq dəyişdirildi. Yəni Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması Ermənistana qarşı ərazi iddiası anlamına gəlməməlidir". T.Kərimli vaxtilə ölkənin adının Şimali Azərbaycan olmasına dair təkliflə çıxışı etdiyini də vurğulayıb: "Şərqi Zəngəzur ölkəmizin bölünməsi ilə bağlı bir xatırlatmadır". Deputat onu da əlavə edib ki, Ağsudakı zəlzələ ilə bağlı ayrılan pul büdcəyə geri qaytarılıb: "Hazırda orada 700 evin tikilməsinə ehtiyac var. Xahiş edirəm ki, büdcəyə qaytarılan pul bu istiqamətdə ayrılsın".

**"Bu torpaqlar gələcəkdə Azərbaycana birləşdirilməlidir"**

**Deputat Fəzail Ağamalı həmkarının fikirləri ilə razılaşmayaraq bildirib ki, Zəngəzur Azərbaycanın tarixi torpağıdır.** Onun sözlərinə görə, 1921-ci ildə Zəngəzurun Ermənistana birləşdirilməsi başa çatıb: "Təkcə Zəngəzur deyil, İrəvan da, Dərələyəz də Azərbaycanın tarixi torpağıdır. Ermənilər heç onların olmayan ərazilərə iddia edir, "Böyük Ermənistan" xülyası ilə yaşayır. Biz isə tarixi torpaqlarımıza iddia edəndə kimdənsə çəkinməliyik?! Biz öz tarixi torpaqlarımıza iddialıyıq və yaxşı edirik. Bu torpaqlar gələcəkdə Azərbaycana birləşdirilməlidir". Milli Məclis sədrinin müavini Fəzail İbrahimli isə qeyd edib ki, Zəngəzur o vaxt Azərbaycan Mərkəzi Komitəsinin qərarı ilə Ermənistana verilib: "Yazıq Nərimanovu məcbur etdilər ki, bu qərarı elan etsin. Burada əsas məsələ Azərbaycan torpağının Ermənistana verilməsi deyildi, türk xəttinin qırılması idi. Ona görə də bu məsələ Qarabağın alınması qədər mühüm əhəmiyyət kəsb edən, vahid türk xəttinin bərpası deməkdir".

**"Deputatlara verilən töhmətin müddəti 6 aydır"**

**Parlamentin İntizam Komissiyasının sədri Eldar İbrahimov deyib ki, deputatlara verilən töhmətin müddəti 6 aydır:** "Bu, köhnə Kommunist Partiyasının töhməti deyil ki... Töhmətdən 6 ay keçibsə, artıq bu inzibati tənbehin vaxtı bitmiş hesab olunur". Deputat bildirib ki, bu, qanunların birinə düşməlidir: "Gələcəkdə bu, əsasnaməyə yox, deputatlarla bağlı qanunların birinə mütləq salınmalıdır".

Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli isə qeyd edib ki, gələcəkdə nizamnaməyə hansısa dəyişiklik nəzərdə tutulsa, deputatlara verilən inzibati tənbeh tədbirinin müddəti məsələsinə baxıla bilər.

**"Astarada su yoxdur"**

**Millət vəkili Rəşad Mahmudov seçicisi olduğu rayonun su problemi olduğunu qeyd edib. Deputatın sözlərinə görə, ölkəmizin hər tərəfində əkin sahələrinin suvarılması ilə əlaqədar problemlər var:** "Hazırda Astara sakinlərinin böyük bir hissəsi əkinçiliklə məşğul olur. Amma su məsələsində problem var". Deputat sonda problemin həlli üçün dövlət qurumlarına müraciət edib.

**"Nə qədər ki gec deyil, Əfqanıstandakı sülhməramlılarımızı ordan çıxaraq"**

**Milli Məclisin deputatı Qüdrət Həsənquliyev Azərbaycanın Əfqanıstanda səfirlik açmaq məsələsinə toxunub. Deputat bunun çox riskli məsələ olduğunu vurğulayıb:**

"Ancaq Azərbaycan hökumətinin bu məsələ ilə bağlı qərarı varsa, buna hörmətlə yanaşırıq. Azərbaycanın Əfqanıstanda 120 nəfərlik sülhməramlı kontingenti var. Bildiyimiz kimi, bir çox ölkələr hərbi qüvvələrini Əfqanıstandan çıxarır. Nə qədər ki gec deyil, biz oradakı kontingentimizi çıxarmalıyıq".

**"Mina xəritələrinin verilməsi bərpa işlərinin sürətlənməsinə təkan verəcək"**

**Deputat Cavid Osmanov deyib ki, mina xəritələrinin verilməsi yenidənqurma və bərpa işlərinin sürətlənməsinə təkan verəcək:** "Saxlanılan ermənilərin qaytarılması beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilib. Ancaq təəssüf ki, bəzi dağıdıcı qüvvələr bu humanist addımı cəmiyyətə fərqli şəkildə təqdim etməyə çalışırlar. Ancaq Azərbaycan xalqı da başa düşür ki, onların tezisləri birbaşa ermənilərdən gəlir".

**İsmayıl Qocayev**

# Rusiya Bakıdan bu qədər zəkalı siyasət gözləmirdi

## Kremlin Cənubi Qafqaz siyasəti, Azərbaycanla bağlı planları pozulur

**Rusiya Silahlı Qüvvələri Baş Qərargahının rəisi Valeri Gerasimovla Ermənistanın Müdafiə naziri Vaqaraşak Arutyunyan arasında telefon danışığı olub.**

Telefon danışığında Ermənistanın Geqarkunik və Sünik vilayətlərindəki vəziyyət müzakirə edilib. V.Gerasimov və V.Arutyunyan Azərbaycanın Qarabağ bölgəsində yerləşdirilən Rusiya sülhməramlılarının fəaliyyəti barədə fikir mübadiləsi apardılar.

**Məlum telefon danışığını "Şərq"ə şərh edən siyasi elmlər doktoru, professor, politoloq Cümşüd Nuriyev bildirib ki, tərəflərin danışığı barədə mətbuatda təbliğatın aparılması Rusiya tərəfindən düşünülmüş növbəti təxribatdır:** "Rusiya nə 10 noyabr 2020-ci il qələbəmizi, nə 15 iyun 2021-ci il Şuşa Bəyənnaməsini, nə də Prezidentin 7 iyul iqtisadi rayonlaşma fərmanını qəbul edə bilir. Çünki rəsmi Moskvanın Cənubi Qafqaz siyasəti, Azərbaycanla bağlı planları pozulur. Təbii ki, həmişə "ayı gücündən" istifadə edən Kreml ölkəmizdən bu qədər zəkalı siyasət gözləmirdi. İndi isə nə açıb-ağarda, nə də başqa cür addım ata bilirlər. Sözügedən telefon danışığı əslində Azərbaycanın daxili işinə müdaxilədir.



Ermənistanla müzakirə edilən məsələ bizi maraqlandırmır, ancaq məhz sərhəd bölgəsi barədə müzakirənin aparılması daha çox Azərbaycan-Ermənistan arasındakı sərhədlərin delimitasiya və demarkasiyası ilə bağlıdır. Təbii ki, bu durum bizi narahat edir. Amma bir məqam var. Ermənistanla Rusiya arasında birləşmiş ordu yaradılıb. Artıq Rusiya bilərəkdən müəyyən addımlar atır. Putin Paşinyanla görüşdə Qarabağ və onun ətrafı məsələsini gündəmə gətirdi. Rusiya XİN başçısı Sergey Lavrov isə Uzaq Şərq Universitetində tələbələrlə görüşdə yenidən Qarabağın statusu barədə danışdı".

Professor qeyd edib ki, tərəflərin məlum danışıqda Azərbaycan ərazisində sülhməramlı adı ilə müvəqqəti yerləşdirilən rus ordusunun durumunu müzakirə etməsi dövlətimizə nəinki mesaj, həm də siyasi təzyiqdir: "Guya, bizi təhdid edirlər. Ermənistan müdafiə naziri kimdir ki, Azərbaycan ərazisində olan başqa dövlətin müvəqqəti ordusu barədə müzakirə aparır? Bütün bunlar BMT nizamnaməsinin həm 6-cı, həm də 7-ci fəslində nəzərdə tutulan maddələrinin kobud şəkildə pozulmasıdır.

Bəs, bu siyasi təzyiq nəyə xidmət edir? Birincisi, Azərbaycanda iqtidar ordu və iqtidar xalq birliyində siyasi "çat" yaratmaq istəyirlər. İkincisi, dövlətini və millətini sevən əhalimizin siyasi təcrübəsi olmadığı üçün onlarla iqtidar arasında gərginlik yaratmağa çalışırlar. Bu, həmçinin Türkiyəyə mesajdır. Yəni ki, "Cənubi Qafqazın sahibi mənəm, vassalım isə Ermənistandır". Bu telefon danışıqlarının arxasında Rusiyanın Azərbaycanı yenidən işğal etmək üçün ordu təxribatları dayanır".

**Yeganə Bayramova**

# “Bilirik Azərbaycana bu zəhər hardan gəlir”



## Millət vəkili: “Gənclər arasında “şüşə” yaxud ”pati” deyilən maddənin istifadəsi o qədər adiləşib ki, insan özü təəccüb qalır”

“2017-ci ildən bu yana yüz hektarlarla meşə sahəsi məhv edilib və biz 3-5 manat mənfəətə görə öz ekologiyamıza, övladımızın nəfəsinə qənim kəsilmişik". Bu sözləri Parlamentin iclasında millət vəkili Bəhruz Məhərrəmov deyib. Deputat bildirib ki, Bakı şəhərində son illər aparılan bütün söküntü işlərinin yerində parklar salınır:



”Dövlət başçısı Sovetski kimi bir bahalı ərazini yaşıllıq zonasına çevirdi. Bulvarı milli parka çevirib bir neçə dəfə böyütdü, paytaxtda digər oxşar misallar çoxdu. Yəni tariximizin heç bir dövründə yaşıllığa münasibət İlham Əliyev hakimiyyəti qədər həssas olmayıb. Təsəvvür edin, yaxın 10 illik Milli Prioritetlərimizdən biri yaşıl artım ölkəsi olmaqdır. Yaxşı, indi dövlət başçısının iradəsi bu yöndədirsə, meşələri qıran kimlərdir? Hansısa sahibkarı hədəfə gətirib linç olunması tərəfdarı deyiləm, o da bizimdir. Sadəcə problemə yol açan məqamları aradan qaldırmalıyıq. Meşə fondu torpaqlarının xəritəsi hələ də ictimaiyyətə açıqlanmır. Niyə? Ən müasir peyk sistemləri ilə hətta hərbi obyektləri görmək olur, yaxşı, indi meşə fondu torpaqlarının sərhədlərini biz kimdən gizlədirik? Digər vacib səbəb, meşə fondu ərazisi əvvəllər 10 illiyə icarəyə verilirdi. Meşə məcəlləsində 2017-ci il dəyişikliyindən sonra bu müddət 49 ilə qaldırıldı, bununla da torpaqların istifadəyə nəzarət imkanları zəiflədi. Ümumiyyətlə, meşə fondu torpaqları icarəyə verilir ki, məhv olmuş meşə massivləri bərpa olunsun. Bizdə nə edilir? Əksinə, meşələr məhv edilir, yerində obyekt tikilir, bağ salınır”.

**Parlament üzvü digər narahatedici məqama da toxunub:** ”Məni narahat edən digər məqam Azərbaycanda hər kəs üçün əlçatan olan narkotik vasitələrin yayılması ilə bağlıdır. Bu gün gənclər arasında ”şüşə” yaxud ”pati” deyilən maddənin istifadəsi o qədər adiləşib ki, insan özü təəccüb qalır. Mən dövlət strukturlarını qınamaq istəmirəm, əllərindən gələni edirlər, lakin məsələ köklü həll edilməlidir. Sirr deyil, bu zəhər Azərbaycana ən çox haradan gəlir. Biz hər dəfə cinayətkarları tuturuq, məsuliyyətə cəlb edirik, sonra ölkələrinə göndəririk, oradan da açıb buraxırlar azadlığa. Bu qədər cinayətkar necə olur öz sərhədini rahat keçə bilir? Niyə bir dəfə biri öz ölkəsinin sərhədini keçərkən, Azərbaycana narkotik maddə gətirməyə cəhd etdiyinə görə saxlamır? Bütün bunlar deməyə əsas verir ki, bu problemi elə özümüz həll edə bilərik, kimdənsə mədət gözləməyə dəyməz. Azərbaycan narkotik alverçisi, narkotik təminatçısı olan istənilən əcnəbi vətəndaş üçün qorxulu bir hüquqi zonaya çevrilməlidir”.

**İsmayıl Qocayev**



## Üçtərəfli hərbi təlimlər əhəmiyyətlidir

### Bununla biz terrorizmə qarşı mübarizə imkanlarımızı artırırıq

**Türkiyə, Azərbaycan və Gürcüstanın iştirakı ilə birgə hərbi təlimlər keçiriləcək. Bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyi məlumat yayıb. Təlimlər 4-8 oktyabr tarixlərində keçiriləcək.**

**Ehtiyatda olan polkovnik Şair Ramaldanov hazırlıqların əhəmiyyətini ”Şərq”ə qiymətləndirib:** ”Bu, ilk deyil. Belə təlimlər müntəzəm keçirilir. Yəni təcrübəmiz var. Oxşar təlimlər dostluq əlaqələrinin möhkəmlənməsi baxımından xüsusi əhəmiyyətlidir.

Həmçinin biz müasir dövrün ən mühüm qlobal problemlərindən biri olan terrorizmə qarşı mübarizə imkanlarımızı artırırıq. Regionda sabitliyi təmin edirik.

Eyni zamanda, fikrimcə, təlim zamanı yeni silahlar da sınaqdan keçiriləcək. Növbəti bir məqam isə enerji dəhlizlərinin təhlükəsizliyinin təmin olunması ilə bağlıdır. Tapşırıqların uğurla yerinə yetiriləcəyinə və qarşıya qoyulan məqsədə çatacağımıza inanıram”.

**Kənan**

# Rusiya Paşinyana Xankəndiyə getməyə qadağa qoyub

Nikol Paşinyanın Rusiya səfərindən və Prezident Putinlə görüşündən sonra müxtəlif mülahizələr səslənir. Xüsusən, rus mediasında bir sıra iddialar gündəmə gətirilir. Məsələn, tanınmış rusiyalı politoloq Stanislav Tarasov bildirir ki, Nikol Paşinyana Moskvada sərt şəkildə ultimatum veriblər. Ona bildiriblər ki, hazırda Rusiya sülhməramlılarının nəzarəti altında olan Azərbaycanın Xankəndi şəhərinə bir daha səfər etmək olmaz.

## Bu onu göstərir ki, Azərbaycanın yavaş-yavaş təsiri öz işini görür



Tarasova görə, diplomatiyanın öz qanunları var. Ermənistan üçtərəfli bəyanat imzalayanda etiraf edib ki, Dağlıq Qarabağ Azərbaycanın ərazisidir. İndi Nikol Paşinyan Xankəndiyə yalnız Bakının icazəsindən sonra gedə bilər: ”Paşinyan tam dalana dirənib. Problem ondadır ki, Paşinyan elə özü bütün danışıqlar prosesini iflasa uğradıb, indi də düşünür ki, Putin onun bütün səhvlərini düzəldə biləcək. Amma Rusiya Prezidenti bunu etməyəcək. Fransızlar da ona kömək edə bilməyəcək”.

**Paşinyanla bağlı iddiaları ”Şərq”ə dəyərləndirən ”Atlas” Araşdırmalar Mərkəzinin eksperti Samir Hümbətov vurğulayıb ki, böyük dövlətlər, o cümlədən Rusiya üçün ən birinci öz maraqlarını təmin etməkdir.** Ekspert bildirib ki, Rusiyanın atdığı bütün addımlarda Moskvanın maraqları dayanır: ”İlk növbədə Putinlə Paşinyanın görüşünə diqqət çəkmək istəyirəm. Putin görüşdə bəyan etdi ki, seçkilər erməni xalqının çətin durumdan çıxmağına imkan yaradacaq. Yəni Kreml rəhbəri Paşinyana demək istəyir ki, ”biz seçkilərə sənin üçün şərait yaratmadıq, erməni xalqının seçiminə hörmət üçün öz dəstəyimizi verdik”. Görüş əsnasında Paşinyanın mimikasına baxdıqda vəziyyətin nədən ibarət olduğunu anlamaq olurdu. Moskvadan Paşinyana hansısa qadağaların qoyulması mümkündür. Yaxşı olardı ki, bu cür qadağalar əvvəllər tətbiq edilərdi. İndi həm Türkiyə, həm də rəsmi Bakı tərəfindən Rusiyaya təzyiqlər var. Azərbaycan qətiyyətli şəkildə Moskvadan tələb edir ki, əgər üzərinə öhdəlik götürmüsənsə, məsuliyyətini dərk et. Azərbaycan hökuməti 10 noyabr və 11 yanvar üçtərəfli bəyanatlarına birmənalı əməl edir. Ermənistan tərəfi isə pozuculuqla məşğuldur. Biz də Rusiyadan haqlı olaraq tələb edirik ki, imza atdığı sənədə əməl etsin və himayəsinə götürdüyü Ermənistanı buna məcbur etsin. Əgər Kreml Paşinyan başda olmaqla İrəvan hökumətinin nümayəndələrinin Xankəndinə gediş-gəlişinə imkan vermirsə, deməli, Azərbaycanın yavaş-yavaş təsiri öz işini görür”.

**Analitik vurğulayıb ki, Rusiya rəsmi Bakının maraqlarını görməzdən gələ bilmir, amma eyni zamanda çalışır ki, öz maraqlarını arxa plana keçirməsin:** ”Zəngəzur məsələsində də Moskva və İrəvan ləng tərpənsə də, Bakının israrı fonunda müəyyən addımlar atmağa məcbur qalırlar. Türkiyə və Azərbaycanın mənafelərinin üstündən keçə bilmirlər. Paşinyanın ”Ermənistan sərhədlərinin qorunması prosesində BMT də iştirak etsin” təklifi, eyni zamanda onun Fransaya və Brüsselə səfəri Rusiya tərəfindən heç də xoş qarşılanmamışdı. Böyük ehtimal bu məqamlar dövlət rəhbərlərinin görüşündə müzakirə mövzusu olub. Ermənistanda hələ hökumət qurulmayıb. Görünən odur ki, Putinin Paşinyana ciddi təlimatı olacaq ki, yeni kabinetdə mütləq ruspərəst qüvvələrdən kimlərsə təmsil olunmalıdır. Moskva çalışacaq ki, əsasən güc strukturlarında özünə yaxın adamları yerləşdirsin. Bu amil Kremlin Ermənistana təsir və nəzarətini daha da artıracaq. Rusiya bütün vasitələrdən istifadə edərək Paşinyanın Qərbə doğru yönəlməsinin qarşısını alacaq”.

**İsmayıl Qocayev**

# Tarixi ədalət bərpa olunur

## “Şərqi Zəngəzur” ifadəsinin dövriyyəyə gətirilməsi yeni geosiyasi reallığın təməlini qoydu

İşğaldan azad edilmiş ərazilərin bərpası, infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilməkdədir. Qarabağın zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə bölgənin hərtərəfli inkişafı hədəflənir. Belə olduqda işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılması şərti ortaya çıxır.



Məlum olduğu kimi ötən gün Prezident İlham Əliyevin fərmanı ilə Azərbaycanda Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonları yaradıldı. Yeni bölgü işlərin vahid proqram əsasında aparılmasına əhəmiyyətli töhfə verəcək. İlk növbədə tarixi reallığı və iqtisadi səmərəliliyi özündə ehtiva edir. Eyni zamanda, bu, Vətən müharibəsində əldə edilmiş parlaq qələbənin daha bir uğurlu nəticəsidir. Çünki bu, yalnız iqtisadi deyil, həm də gələcəyə yönəlik mühüm siyasi-strateji qərardır. Onu da xüsusi qeyd etmək lazımdır ki, bu qərarla Şərqi Zəngəzurun öz tarixi adı bərpa edilir. Eləcə də Xankəndi və Xocalının Qarabağ iqtisadi rayonuna daxil edilməsi olduqca tarixi əhəmiyyətə malikdir. Şübhə yoxdur ki, iqtisadi rayonların yeni bölgüsü Qarabağın və Şərqi Zəngəzurun inkişafını sürətləndirəcək.

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov “Şərq”ə bildirib ki, siyasi leksikonumuza ”Şərqi Zəngəzur” siyasi termininin, eləcə də Xankəndi, Xocalı, Xocavəndin Qarabağ iqtisadi rayonuna daxil edilməsi son günlərin ən mühüm hadisəsi sayılmalıdır.** Partiya rəhbərinin sözlərinə görə, bu addım öz əhəmiyyətinə və çəkisinə görə 10 noyabr Bəyanatından və 15 iyun Bəyannaməsindən əsla geri qalmır: ”Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması çox gözəl addımdır. Bununla bütün dünya ictimaiyyətinə açıq mesaj verilir ki, Zəngəzur bütövlükdə tarixi Azərbaycan torpağıdır. Həmin torpağın bir hissəsi - Qərbi Zəngəzur faktiki olaraq Ermənistanın girovluğunda qalmaqdadır. Azərbaycan Prezidenti ”Şərqi Zəngəzur” ifadəsini dövriyyəyə gətirməklə bölgədə yeni geosiyasi reallığın təməlini qoyur. Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının ”Şərqi Zəngəzur” adı altında vahid iqtisadi rayonda birləşdirilməsi necə deyərlər, günümüzün zəruri tələbi idi. Eyni zamanda bununla həm də tarixi ədalətin bərpası üçün, Zəngəzur qəzasının gerçək sahibinin kimliyini dünyaya bəyan etmək üçün hüquqi zəmin yaradılmış oldu. Yeni Qarabağ iqtisadi rayonu isə ”Dağlıq Qarabağ münaqişəsi”ni və qondarma ”Artsax” anlayışını həmişəlik olaraq tarixə gömdü”.

Ə.Hüseynov bəyan edib ki, sözügedən fərmanın imzalanması ilə rəsmi Bakı hamıya mesaj verdi ki, Azərbaycan Xankəndi, Xocalı, Xocavənd üzərində öz suverenliyini dinc yolla bərpa etmək əzmindədir və bu, qaçılmazdır: ”Xankəndidə tezliklə Azərbaycan bayrağının dalğalanacağına heç kimdə zərrə qədər şübhə qalmadı. Orada yaşayan mülki ermənilər də artıq bu yeni reallığa hazır olsunlar. Ölkəmizin digər ərazilərində olduğu kimi Xankəndidə və ətraf ərazilərdə də yalnız Azərbaycan qanunları işləyəcək. Bu, rəsmi Bakının prinsipial mövqeyidir və bu mövqe həqiqətən də alqışalayiqdir”.

**İsmayıl**

# Dost qazandırırlar

## Diplomatların dövlətimizin müdafiəsində xüsusi rolu var



Azərbaycanda diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı qeyd olundu. Müsəlman Şərqində ilk demokratik respublikanın yaradılmasında və müasir dövrdə müstəqil Azərbaycan dövlətinin qurulması prosesində milli diplomatiyanın rolu vacibdir.

2007-ci il avqustun 24-də Prezident İlham Əliyev hər il iyulun 9-nun Azərbaycan Respublikası diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı günü kimi qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

Azərbaycan diplomatiyası ilk addımlarını atarkən - 1919-cu ildə Bakıda 16 xarici dövlətin, o cümlədən ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, İsveç, İsveçrə, Belçika, İran, Polşa və Ukraynanın diplomatik nümayəndəlikləri fəaliyyət göstərib.

Məlumdur ki, 2020-ci və bu ildə diplomatiyamız böyük uğurlar əldə edib. 44 günlük müharibədə yalnız savaş meydanında deyil, diplomatik sahədə də mübarizəmiz effektiv şəkildə aparılıb.

Azərbaycan diplomatiyasının uğurlu inkişaf yolu barədə ”Şərq”ə danışan millət vəkili Asim Mollazadə bildirib ki, diplomatlarımızın bir çoxu vətəndən uzaqda, ağır şəraitdə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizə aparırlar: ”Diplomatlarımız Azərbaycanı tanıdır, ölkəmizə dost qazandırır, dövlət siyasətimizi işlədiyi ölkələrdə müdafiə edirlər. Bu gün Azərbaycan diplomatları daha çox sevinirlər ki, 44 günlük müharibədən sonra əsgərlərimiz ərazi bütövlüyümüzü bərpa etdi. Fikrimcə, bu hərbi qələbə həmçinin diplomatik cəbhədəki döyüşlər vasitəsilə əldə olunub. Fürsətdən istifadə edərək azərbaycanlı diplomatları təbrik edirəm. Çünki onların hər birinin dövlətimizin müdafiəsində xüsusi rolu var”.

**Yeganə Bayramova**

# Böyük Zəfərdən yazdılar

## Kitabda Qarabağla bağlı yazıçıların öz doğma bölgələri haqqında düşüncələrinə, xatirələrinə yer verilib

Azərbaycan Yazıçılar Birliyinin təşəbbüsü ilə 44 günlük Vətən müharibəsindən bəhs edən "Qarabağ Dastanı, otuz ilin həsrəti - 44 günün zəfəri" adlı kitab işıq üzü görüb.




”Təhsil” nəşriyyatında çap edilən 528 səhifəlik geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş kitabın ideya müəllifi Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, ön söz müəllifi və redaktoru AYB-nin sədr müavini Rəşad Məciddir. Kitabda Qarabağla bağlı yazıçıların öz doğma bölgələri haqqında düşüncələrinə, xatirələrinə yer verilib. İşğalın gətirdiyi kədəri, eyni zamanda qələbəmizdən qaynaqlanan qüruru əks etdirən məqalə və şeirlərdə Qarabağın tarixinə dair maraqlı faktlar, unudulmaz duyğular, müəlliflərin şirinli-acılı xatirələri əks olunub. Vurğulanıb ki, bu yazılar Azərbaycanın böyük zəfərinin əbədiləşməsinə qələm adamlarının töhfəsidir. Azərbaycan xalqı və şanlı ordumuz Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə 44 günlük II Qarabağ müharibəsində möhtəşəm qələbə qazandı. Bütün xalqımız kimi Azərbaycan yazıçılarının da 30 ilə yaxın zaman müddətində qəlbində daşıdığı acı, nisgil, həsrət, nəhayət, sona yetdi. Qarabağın hər bir rayonundan olan yazıçı öz rayonu haqqında xatirələrini yazıb. Məsələn, Ramiz Rövşənin Qubadlıdan, Seyran Səxavətin Füzulidən, Aqil Abbasın Ağdamdan, Rəşad Məcidin isə bütün işğaldan azad olunan rayonlar haqqında yazıları yer alıb. Eyni zamanda poeziya bölmələri var ki, Anar Rzayevin, Çingiz Abdullayevin yazıları çap olunub.

Kitabda həmçinin, Azərbaycan-Türkiyə dostluğuna həsr olunmuş səhifələr də var. Prezident İlham Əliyev və Türkiyə lideri R.T.Ərdoğanın səmimi dostluğu, müqəddəs savaşımızda Türkiyənin ölkəmizə verdiyi dəstək, eləcə də həmin günlərdə Türkiyə yazıçılarının həmrəylik məktubları yer alıb. Türk Mədəniyyəti və İrsi Fondunun rəhbəri Günay Əfəndiyevanın yazısında isə Türkiyənin və türk dövlətlərinin Azərbaycana verdikləri dəstək sadalanıb.

Kitabın sonunda Xalq yazıçısı Anarın ötən əsrin 80-ci illərində yazdığı, informasiya bolluğu ilə seçilən, təsir gücünü itirməyən, hər oxuduqda Şuşanı xatırladıb ürəyimizi gizildədən ”Qarabağ şikəstəsi” yazısı dərc olunub. Həmçinin, xalq yazıçısının müxtəlif illərdə Qarabağ mövzusunda yazdığı sanballı məqalələr də yer alıb.

**İsmayıl**

# “Sülhməramlılar işlərini görmürlər”



## Fərəc Quliyev: “Əvəzində Putinlə Makron bizə “resept” verir”

**Qarabağ məsələsində Azərbaycanla əlaqələr daim üçtərəfli razılaşmaların icrası çərçivəsində həyata keçirilir. Bunu Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov Moskvada Vladimir Putinlə Ermənistan Baş naziri vəzifəsini icra edən Nikol Paşinyan arasında baş verən görüşdən sonra Azərbaycan tərəfi ilə hər hansı bir danışıqların planlaşdırılıb-planlaşdırılmayacağına dair sualı cavablandırarkən deyib.**

”Azərbaycan tərəfi ilə təmaslar davamlı şəkildə aparılır. Hamı üçtərəfli müqavilələrin müddəalarının həyata keçirilməsinin çox vacib olduğunu və alternativinin olmadığını qəbul edir. Və bu icra çərçivəsində həm Ermənistan tərəfi, həm də Azərbaycan tərəfi ilə təmaslar qurulur”, - deyə Peskov qeyd edib.

El dili ilə desək, deyəsən, Peskov bu açıqlamanı ”Xala, xətrin qalmasın” deyə verib. Ən azından ona görə ki, sərhəddə ard-arda təxribatlar törədilir, Ermənistanda Baş nazir vəzifəsini icra edən Nikol Paşinyan Moskvada səfərdədir. İndi Peskovun iki-üç cümləlik bəyanatı nəyə hesablanıb və nələri dəyişə bilər?

**Keçmiş millət vəkili, Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev bu barədə ”Şərq”in suallarını cavablandırıb:**

- Rusiya prezidentinin sözçüsünün bu bəyanatını necə qiymətləndirirsiniz?

- Biz sözlərə yox, əməllərə qiymət verməliyik. Üçtərəfli razılaşmanın dördüncü şərtinə uyğun olaraq erməni silahlıları Qarabağdan çıxarılmalı idi. Amma bu olmadı. Üstəgəl, Laçın dəhlizindən terrorçuların buraxılması, minalı ərazilərin xəritəsinin verilməməsi, Moskvanın mülki idarəetməyə müdaxiləsi və digər amillər Kremlin səmimiliyinə şübhə yaradır. Əgər atəşkəsdirsə, minalı ərazilərin xəritəsi mütləq verilməli idi. Çünki mina da silahın bir növüdür.

**- Elə son təxribatlarda da sülhməramlıların reaksiyasını görmədik...**

- Bəli. Sülhməramlılar işlərini görmürlər. Əvəzində Putin, Makron Qarabağla bağlı bizə ”resept” verirlər. Məgər Bakı onların daxili işlərinə qarışır?! Suverenliyimizə təhdid cəhdləri qeyri-səmimiliyin ən bariz təzahürüdür.

**- Təxribatlar, Paşinyanın Moskva səfəri və Peskovun açıqlamasının eyni vaxta düşməsi təsadüfdür?**

- Əlbəttə, yox. Bu onu göstərir ki, ortaq planlar var. Hər halda Rusiyanın icazəsi olmadan erməni ov tüfəngindən də atəş aça bilməz.

**- Məqsəd nədir?**

- Sülhməramlıların sayını artırmaq. Lakin onların fəaliyyət müddəti uzaqbaşı beş il ola bilər. Qarabağ hərbi baza deyil! Belə bleflərlə bizə təsir etmək mümkün olmayacaq!

**Kənan Novruzov**

## "Fəryad- 2" uğurlu olmayacaq

### Aqil Abbas: “Nə əvvəlki aktyorlar var, nə də əvvəlki rejissorlar”





**Vətən müharibəsinə həsr olunmuş kinorejissor Vaqif Mustafayevin şərti adlandırılan ”Fəryad-2” filminin çəkilişlərinə hazırlıq prosesi gedir.**

Bu barədə ”Azərbaycanfilm” kinostudiyasının direktoru Fariz Əhmədov məlumat verib. O bildirib ki, Hadrut və Bakıda dekorasiyaları tikilən filmin çəkilişlərinə iyulun 15-dən sonra başlanılacaq. Çəkilişlərin noyabr ayında qələbənin ildönümünə qədər tamamlanması və tamaşaçılara təqim olunması gözlənilir.

**Millət vəkili Aqil Abbas bu barədə fikirlərini ”Şərq”lə bölüşüb:** ”Təşəbbüsü yüksək qiymətləndirirəm. Amma uğurlu olacağına inanmıram. Çünki nə əvvəlki aktyorlar var, nə də əvvəlki rejissorlar”.

**Kənan**

## Bakıda polis rəisi özünü güllələyərək öldürdü

### Rahib Mirzəyev polis general-mayoru Sahib Mirzəyevin qardaşıdır

**Bakıda polis rəisi özünü güllələyərək öldürüb.** Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətindən Sputnik Azərbaycan-a verilən məlumata görə, Binəqədi Rayon Polis İdarəsinin 4-cü Polis Şöbəsinin rəisi Rahib Mirzəyev dünən səhər saatlarında xidməti otağında tabel silahından istifadə etməklə intihar edib. Faktla bağlı rayon prokurorluğunda araşdırma aparılır.

Qeyd edək ki, Rahib Mirzəyev polis general-mayoru Sahib Mirzəyevin qardaşıdır. S.Mirzəyev hazırda təqaüddədir. Xatırladaq ki, R. Mirzəyev 2019-cu ildə Binəqədi Rayon Polis İdarəsinin 4-cü Polis Şöbəsinə rəis təyin edilib.

Xatırladaq ki, bu yaxınlarda Bakıda daha bir polis özünə qəsd etmişdi. Mayın 20-də günorta saatlarında Yasamal rayonu ərazisində rayon polis idarəsinin əməkdaşı, 1995-ci il təvəllüdlü Həsən Osmanov qısqanclıq zəminində tabel silahından atəş açaraq, tanışı - 1996-cı il təvəllüdlü Fatimə Hüseynovanı qətlə yetirib, özü isə başına güllə vuraraq inthara cəhd edib. Hadisədən bir gün sonra xəstəxanada ölüb.

## 690 bal toplayan tələbə yol qəzasında ölüb



**Bakı Ali Neft Məktəbinin (BANM) tələbəsi yol qəzasında ölüb.**

”Report” xəbər verir ki, ali məktəbin İnformasiya təhlükəsizliyi ixtisasının 3-cü kurs tələbəsi Bəhmən Musayev ötən gün ağır yol qəzasına düşüb.

O, hadisə nəticəsində aldığı xəsarətlərdən dünyasını dəyişib.

*Qeyd edək ki, B.Musayev imtahanlarda 690 bal toplayaraq BANM-ə qəbul olmuşdu. O, həm də Prezident təqaüdçüsü idi.*

# Qarabağ öhdəlikləri yerinə yetirilmir

## Rusiya istəsə bütün təxribatlara mane ola bilər



**Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Qarabağla bağlı üçtərəfli bəyanatların ardıcıl həyata keçirilməsinin vacibliyini vurğulayıb. Onun sözlərinə görə, Ermənistan-Azərbaycan sərhədindəki müəyyən ərazilərdəki vəziyyət, sərhədin beynəlxalq hüquqi qeydiyyatının olmamasının nəticəsidir. Ümumi fonu isə tərəflər arasında qarşılıqlı etimadın olmaması daha da ağırlaşdırır:**

”Dəfələrlə vurğulamışıq ki, bu problemin davamlı və uzunmüddətli həlli olaraq, Azərbaycan ilə Ermənistan arasındakı sərhədin delimitasiyası, ardınca demarkasiyası işlərinin tezliklə başlanılmasında görürük. Lazımi konsultativ yardım etməyə hazırıq. Hazırda xarici siyasət və müdafiə qurumları, həmçinin sərhəd xidmətləri ilə (o cümlədən gərginliyi azaltmaq məqsədi ilə) təmaslar davam edir”, - deyə o bildirib.

Zaxarovanın sözlərinə görə, bir sıra məsələlər iyulun 7-də Moskvada Rusiya Prezidenti Vladimir Putin ilə Ermənistanın Baş nazir vəzifəsini icra edən Nikol Paşinyanın görüşündə müzakirə edilib:

”Üç ölkə liderlərinin ötən il 9 noyabr və bu il 11 yanvar tarixli bəyanatlarının ardıcıl həyata keçirilməsinin vacibliyi təsdiqlənib. Biz danışığımızı və praktikada həyata keçirdiyimizi yenidən təsdiqləyirik. Rusiya Qarabağda dinc həyatın qurulmasına, İrəvanla Bakı arasında etimadın gücləndirilməsinə töhfə verməyə hazırdır”.

**Siyasi elmlər doktoru Sabir Məmmədli Zaxarovanın açıqlamasında nə dərəcədə səmimi olub-olmadığına dair fikirlərini ”Şərq”lə bölüşüb.**

Onun sözlərinə görə, Rusiya verdiyi vədlərə əməl etmir və ona görə də sözügedən açıqlamalar səmimi deyil: ”Üçtərəfli bəyanatdan sonra Rusiyanın üzərinə bir sıra öhdəlik düşürdü. Təəssüf ki, Kreml bu öhdəliklərin əksəriyyətini yerinə yetirmir. Bu günlərdə Ağdamda atəş açıldı, hərbçilərimizdən biri yaralandı. Nəzərə alsaq ki, bu əraziyə nəzarəti rus sülhməramlıları həyata keçirirdi. Digər tərəfdən Rusiya yuxarı Qarabağda erməni qaçqınlarını yerləşdirməklə məşğuldur. Rəsmi Moskva həmçinin beynəlxalq hüquqa görə qeyri-qanuni hesab olunan erməni terroristlərin həbs olunmasını gündəmə gətirmir. Vaxtilə azərbaycanlılara qarşı soyqırım törətmiş cinayətkarların həbsinə laqeyd yanaşır”.

S.Məmmədli qeyd edib ki, Ermənistan hərbi qüvvələri rus sülhməramlılarının nəzarətindədir. Rusiya istəsə təxribatların baş verməsinə mane ola bilər: ”Bir sözlə, rəsmi Moskva üzərinə götürdüyü öhdəliyi yerinə yetirmir, ancaq istənilən proseslərə müdaxilə edir. Məsələn, üçtərəfli bəyanatda yazılmışdı ki, İrəvandan erməniləri gətirib Xankəndiyə yerləşdirsinlər? Təbii ki, yox. Bütün bunlar da ondan xəbər verir ki, Rusiya bölgədə yalnız öz maraqlarını güdməklə məşğuldur. Əlbəttə, bu durum Azərbaycan cəmiyyətində ciddi narazılıq yaradır. Sözsüz ki, son günlər Rusiyanın istər prezidenti, istər XİN başçısı bölgədə təxribata maraqlıdır. Bu durum xüsusilə Şuşa Bəyannaməsindən sonra üzə çıxdı. Gördülər ki, Türkiyə NATO vasitəsilə bölgəyə daxil olur. Həmçinin Amerika, İtaliya kimi ölkələr də Azərbaycana dəstək verir. Prezidentin 7 iyul iqtisadi rayonlaşma ilə bağlı fərmanı da Rusiya və Ermənistanda ciddi narahatlıq yaradıb. Kreml gözləmirdi ki, belə bir fərman verilər”.

**Yeganə Bayramova**

# Tarixçi-alim təhsil haqlarına üsyan etdi

## “Papaq altda” oğullar var, istedadlı, savadlı...”




## Ancaq təhsil xərcini ödəyə bilmədiyi üçün Azərbaycandan gedir

**Türkiyə ilə Azərbaycan arasında ali təhsil sahəsində əməkdaşlıq genişləndirilir. ”Report”un xəbərinə görə, bu, Türkiyə-Azərbaycan iqtisadi əməkdaşlığına dair fəaliyyət planında əksini tapıb.**

Sənəddə qeyd edilib ki, Təhsil Nazirliyi ilə Türkiyə Ali Təhsil Şurası arasında ali təhsil əməkdaşlığa dair Anlaşma Memorandumunun 5-ci bəndinə əsasən, Azərbaycan vətəndaşlarının Türkiyədə fəaliyyət göstərən ali təhsil müəssisələrinə sertifikat ilə qəbul edilməsinin dayandırılması təşviq ediləcək. Türkiyə Ali Təhsil Şurasının rəsmi internet səhifəsinin ”YÖK Lisans Atlası” bölməsində Azərbaycan ali təhsil müəssisələrinin sayının artırılması istiqamətində görüşlər keçiriləcək. Bu işlərin həyata keçirilməsi Azərbaycan tərəfdən Təhsil Nazirliyinə, Türkiyə tərəfdən isə Ali Təhsil Şurasına (YÖK) tapşırılıb.

**Məsələ ilə bağlı ”Şərq”ə danışan fəlsəfə doktoru, təhsil eksperti Kamran Əsədov sertifikat deyildikdə nəyin nəzərdə tutulduğunun açıqlanmağını bildirib:**

- Təhsil Nazirliyi bu məsələyə aydınlıq gətirməlidir ki, sertifikat deyildikdə nə nəzərdə tutulur. Bildiyim qədər Türkiyə ali təhsil sistemində sertifikat adlı bir şey yoxdur. Rəsmi dövlət orqanı bu məsələyə aydınlıq gətirməlidir.

**Tarix üzrə fəlsəfə doktoru Kərəm Məmmədov Türkiyə ali təhsil sistemi ilə Azərbaycan ali təhsil sistemi arasında böyük fərq olduğunu deyib:**

- Sertifikat məsələsi qaranlıqdır. Övladım Oğuz burda şərqşünaslıq fakültəsinin bakalavr pilləsini bitirdi, magistratura pilləsini Türkiyədə bitirdi. Magistr diplomunun təsdiqlənməsi üçün Azərbaycan Təhsil Nazirliyinə müraciət etdi, bir müddət sonra nəhayət təsdiqlədilər. İndi yenə Türkiyədə doktorantura pilləsində təhsil alır. Hər il nə qədər məzun Azərbaycandan Türkiyəyə təhsil almağa gedir. Niyə? Çünki burda təhsil haqları çox bahadır. Burda aşağı təhsil səviyyəsinə böyük məbləğdə pul xərcləməkdənsə, Türkiyədə az məbləğlə yüksək təhsil almağı üstün tuturlar, düz də edirlər. Əgər bizimkilər gənclərin ali təhsilə yiyələnməsini, yüksək ixtisaslı kadr kimi yetişməsini istəyirlərsə, təhsil xərclərini aşağı salsınlar, 100 bal toplamış abituriyentə elə yüksək səviyyədə ali təhsil versinlər ki, 400 ballıq abituriyentdən də üstün olsun. Əsl müəllimləri saxlasınlar ali təhsil müəssisələrində, rüşvətxorları, müftəxorları yox. ”Papaq altda” oğullar var, istedadlı, savadlı, təhsil xərcini ödəyə bilmədiyi üçün burda ali təhsil ala bilmir. Amma xarici ölkəyə gedir, orada ürəyi istədiyi kimi təhsil alır. Hələ təklif edirlər ki, qal, burda da işlə. Ona görə də memorandum imzalamaqla deyil, təhsil sahəsində köklü islahatlar lazımdır.

**Məlahət Rzayeva**

## Yoluxma sayı kəskin artdı

### Son sutkada 174 nəfər yoluxub, 2 nəfər vəfat edib

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 174 yeni yoluxma faktı qeydə alınıb, 62 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 336 962 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 330 668 nəfər müalicə olunaraq sağalıb, 4982 nəfər vəfat edib, aktiv xəstə sayı 1312 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 9 947, ötən müddət ərzində isə ümumilikdə 3 831 673 test aparılıb.

## Sumqayıtda qarajda iki nəfərin meyiti tapılıb



**Sumqayıtda qarajda iki nəfərin meyiti tapılıb.**

APA-nın yerli bürosunun məlumatına görə, hadisə şəhərin Hacı Zeynalabdin qəsəbəsində qeydə alınıb. Belə ki, ərazidə olan qarajlardan birinə keçirilən baxış zamanı orada olan avtomobildə qəsəbə sakini 1991-ci il təvəllüdlü Məmmədov Vahid İntiqam oğlu və tanışı, Abşeron rayonu, Ceyranbatan qəsəbə sakini 1991-ci il təvəllüdlü Mahmudova Jasmina Hüseyn qızı ölmüş vəziyyətdə tapılıblar. Meyitlər müayinə olunması üçün aidiyyatı üzrə təhvil verilib. Gənclərin ölüm səbəbləri araşdırılır.

Hər iki şəxsdən 3 gündür xəbər olmadığı bildirilir. Həmin şəxslər yaxınları tərəfindən axtarılıb. V.Məmmədovun iyulun 1-də hərbi xidmətdən gəldiyi və qarajın onlara məxsus olduğu bildirilir.

Faktla bağlı araşdırma aparılır.

# Müharibə təhlükəsi qaçılmazdır

Milli Məclisin iclasında çıxış edən deputat Qüdrət Həsənquliyev Azərbaycan sülhməramlılarının Əfqanıstandan çıxmasını təklif edib. Parlament üzvü bildirib ki, artıq ABŞ, Almaniya və digər dövlətlər öz hərbi kontingentini Əfqanıstandan çıxarır:

”Ötən ilin sonunda biz parlamentdə Əfqanıstanda səfirliyimizin açılması ilə bağlı qanun qəbul etdik. O zaman da qeyd etdim ki, bu, çox risklidir. Amma indi ABŞ Əfqanıstandakı 20 illik fəaliyyətinə son qoyur, ölkəni tərk edir. Artıq bir neçə gün bundan öncə Çin də öz vətəndaşlarını təcili Əfqanıstanı tərk etməyə səslədi. Azərbaycanın da Əfqanıstanda 120 nəfərlik sülhməramlı missiyası var. Hesab edirəm ki, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi bu məsələni təcili şəkildə Müdafiə Nazirliyi ilə müzakirə etməli və Ali Baş Komandana müraciət edilməlidir. Nə qədər gec deyilsə, bizim sülhməramlılar Əfqanıstandan çıxarılmalıdır. Hökumət artıq Əfqanıstanın bütün kənar bölgələrinə nəzarəti itirib. Hər gün daha çox ərazilər ”Taliban”ın nəzarətinə keçir. Əfqanıstan orta əsrlər qanunları ilə yaşamaq istəyir”.

Azərbaycan kontingenti Əfqanıstanda qalarsa, onları hansı təhlükələr gözləyir?

**Sualımızı cavablandıran Sosial Tədqiqatlar Mərkəzinin Daxili siyasətin təhlili departamentinin baş məsləhətçisi, politoloq İlyas Hüseynov deyib ki, Əfqanıstanda olan Azərbaycan kontingentinin çıxarılması ilə bağlı çağırış çox düzgündür.** Politoloq vurğulayıb ki, artıq dünyanın aparıcı hərbi siyasi ekspertləri Əfqanıstanda vəziyyətin gərginləşməsi ilə bağlı müxtəlif proqnozlar edirlər: ”Bununla da hər keçən gün eskalasiya riski daha da artır və bu genişmiqyaslı müharibələrə gətirib çıxarda bilər. Çünki Əfqanıstanın sərhədyanı bölgələrində ”Taliban” qüvvələrinin hərəkətlənməsi, eyni zamanda Amerika Birləşmiş Ştatları qoşunlarının ölkəni tərk etməsindən sonra vəziyyəti daha da kəskinləşəcək. Burada isə bizim üçün əsas məsələ azərbaycanlı hərbiçilərin sağlamlığının, təhlükəsizliyinin qorunmasıdır. Eyni zamanda onların beynəlxalq standartlara uyğun şəkildə evakuasiyanı həyata keçirtmək çox önəmlidir. Çünki azərbaycanlı hərbi qulluqçular geniş miqyaslı müharibə başlayacağı təqdirdə sülhü və təhlükəsizliyi qoruya bilməyəcəklər. Dünyadakı digər sülhməramlı qoşunlar və qüvvələr də oranı tərk etmək məcburiyyətində qalacaq. Buna görə də bu proses nə qədər tez baş versə, o qədər daha effektiv və səmərəli olar”.



Azərbaycanın sülhməramlıları Əfqanıstandan təcili çıxarılmalıdır

**İ.Hüseynov qeyd edib ki, sülhməramlı qüvvələrin çıxarılması ilə bağlı digər dövlətlərdə də müzakirələr gedir:** ”Artıq müharibə ehtimallarını nəzərə alaraq radikallarla hakimiyyət qüvvələri arasında müxtəlif çaxnaşmaların, silahlı qarşıdurmaların baş verməsi qaçılmazdır. Bu nöqteyi-nəzərdən bizim üçün ən prioritet məsələ hərbi qulluqçularımızın sağlamlığı və onların həyatıdır. Əgər onların sağlamlığına və təhlükəsizliyinə indidən təhdid varsa, çox tez bir zamanda onların vətənimizə qaytarılması prosesinə başlamaq lazımdır. Çünki əks təqdirdə çox gec ola bilər. Həm şərqdən, həm də qərbdən ”Taliban” qüvvələrinin ölkəni nəzarətə almasından sonra artıq bunu etmək biraz çətin olacaq. Çünki Taliban qüvvələri hava məkanına da nəzarəti ala bilərlər. Onda artıq bizim hərbi qulluqçularımız çıxılmaz vəziyyətə düşə bilər. Bunu nəzərə alaraq artıq bu sahəyə nəzarət edən şəxslər Müdafiə Nazirliyinin müvafiq dəstəsi sülhməramlı kontigentin oradan çıxarılması ilə bağlı nə qədər tez qərar versə, o qədər itkilərin qarşısını daha tez almaq mümkün olar”.

**Aynurə Pənahqızı**



# Arxayın olmayın, pandemiya hələ bitməyib

## Epidemiya yenidən alovlana və dördüncü dalğa baş verə bilər



**"Yaxın günlərdə "Delta" ştammı Fransada ən geniş yayılmış variant olacaq".** Bu barədə Fransanın Səhiyyə naziri Olivye Veran məlumat verib. O, "France Inter" radiostansiyasının efirində bildirib ki, bu ştamm əvvəlki variantlara nisbətən daha yoluxucudur. Ona görə də hökumət bütün fransızları vaksinləməyə laqeyd yanaşmamağa və sanitar təhlükəsizlik tədbirlərinə riayət etməyə çağırır. Dünyanın bir çox ölkəsində koronavirusun yeni variantı yayılıb. Son zamanlar "Delta" ştamminin ölkəmizdə də yayılıb-yayılmayacağına dair müəyyən suallar yaranır.

**Həkim-infeksionist Vüqar Cavadzadə "Şərq"ə açıqlamasında bildirib ki, "Delta" ştammı koronavirusun mutasiya nəticəsində əmələ gələn Hindistan ştammıdır:** "Hindistan ştamminin mutasiyası nəticəsində formalaşan variantı "Delta" ştammıdır. "Delta" ştamminin özü də mutasiyaya uğrayıb və "Delta plus" ştammı yaranıb. Hamısı mutasiyaya uğraya-uğraya gedir. Sözügedən ştamm daha çox yoluxucu xüsusiyyətə malikdir. Uşaqlar arasında da yoluxuculuq xüsusiyyəti yüksəkdir. "Delta" variantı daha çox insanı yoluxdurmaq xüsusiyyətinə malikdir. Bu virus Türkiyə də daxil olmaqla, qonşu ölkələrdə yayılıb. Rusiyada son günlər bu virus daha çox yayılmağa başlayıb. Rusiyada gündəlik yoluxmalar və ölüm sayı həddsiz artıb".

**Həkimin sözlərinə görə, "Delta" ştamminin Azərbaycana gəlməsi ehtimalı var:** "Delta" ştamminin əlamətləri digərlərindən elə də fərqlənmir. Nə müalicəsində, nə də profilaktikasında bir fərq var. COVİD-19 üçün hansı profilaktik tədbirlər aparılırdısa, həmin tədbirlər sözügedən ştamm üçün davam etdirilməlidir".

**V.Cavadzadə xatırladıb ki, biz hələ də pandemiya dövrünü yaşayırıq, pandemiya bitməyib:** "Epidemiya yenidən alovlana və dördüncü dalğa baş verə bilər. Necə Rusiyada alovlanıbsa, bizdə də eyni hal ola bilər. Hələ ki ölkəmizdə epidemik vəziyyət sabitdir, yoluxmaların sayı minimal həddədir. Epidemik cəhətdən təhlükəli heç nə yoxdur. Amma mövcud tədbirlərə riayət olunmasa, dördüncü dalğa da yarana bilər".

**Yeganə Bayramova**

---

Kənd Təsərrüfatı Nazirliyi şənbə-bazar günləri "Kənddən şəhərə" həftəsonu yarmarkaları keçirəcək. Bu barədə nazirlik məlumat yayıb. Məlumata görə, Bakı və Abşeron ərazisində üç fərqli ünvanda baş tutacaq yarmarkaların təşkilində əsas məqsəd yerli fermer təsərrüfatları üçün alternativ satış kanalı yaratmaq, eyni zamanda şəhər sakinlərini təbii və sağlam kənd məhsulları ilə dolğun şəkildə təmin etməkdir.

# Qeyri-rəsmi sövdələşmələr var

## Bunun adı "kənddən şəhərə" deyil, "şəhərdən-şəhərə"dir



"Məhsul becərən kəndli, fermer yarmarkanın qapısı arxasında qalır. Belə vəziyyətdə qiymət ucuzluğundan söhbət gedə bilməz"

Budəfəki yarmarkalarda ümumilikdə 40-a yaxın regiondan 100-ə kimi fermer 50-yə qədər çeşiddə təbii kənd təsərrüfatı və qida məhsullarının satışını həyata keçirəcək. Satışa çıxarılan məhsulların keyfiyyətinə nəzarət etmək məqsədilə yarmarkalarda Qida Təhlükəsizliyi Agentliyinin Səyyar Qida Laboratoriyası fəaliyyət göstərəcək. Vətəndaşlar yarmarkada satışa çıxarılan hər hansı bir məhsulun keyfiyyət göstəricilərini öyrənmək üçün laboratoriyanın xidmətlərindən ödənişsiz şəkildə faydalana bilər. Yarmarkalar karantin rejiminin tələblərinə əməl olunmaqla baş tutacaq. Yarmarkada iştirak edəcək fermerlər ödənişsiz şəkildə piştaxta, tərəzi və digər avadanlıqlarla yanaşı, tibbi ləvazimatlarla *(tibbi maska, dezinfeksiyaedici maddələr, əlcək və.)* da təmin olunacaqlar. Yarmarkaya alış-verişə gələcək vətəndaşların temperaturları ölçüləcək, tibbi maskadan istifadəyə və sosial məsafənin gözlənilməsinə xüsusi diqqət yetiriləcək. Eyni zamanda, yarmarka ərazisində mütəmadi olaraq dezinfeksiya işləri aparılacaq.

"Kənddən şəhərə" yarmarkaları aşağıdakı ünvanlarda fəaliyyət göstərəcək:

- Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 *("Gənclik" metrostansiyasının çıxışı);*
- Binəqədi rayonu, Süleyman Sani Axundov, 5B *("İnqilab" kinoteatrının yanı);*
- Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 41A.

Kənd Təsərrüfatı Nazirliyi nə qədər çalışsa da, yarmarkaların təşkilində qarşıya qoyduğu məqsədə nail olmuş görünmür. Bu səbəbdən ki, yarmarkalardakı qiymətlər digər satış nöqtələrindəkindən əsaslı şəkildə fərqlənmir. Əhali qiymətlərdəki cüzi fərqə - ekonom edəcəyi qəpikquruşa görə, xüsusən də ictimai nəqliyyatın işləmədiyi şənbə-bazar günlərində özünə əziyyət verib uzaq məsafədən pomidor-xiyar daşımağı mənasız sayır. Bu yarmarkalara yalnız həmin əraziyə yaxın və ətraf məhəllələrdə yaşayanlar gedər, uzaqbaşı. Ya da şəxsi avtomobili olanlar. Sözün qısası, yarmarkalar əhalinin böyük hissəsini çətin ki, əhatə etsin. Belə çıxır ki, yenə görüntü, gözbağlıca oyunu?! "Quş qoymaq" üçün keçirilən yarmarkalar.

**İqtisadçı-ekspert Rəşad Həsənov da "Şərq"ə açıqlamasında yarmarkaların təşkili qaydasından narazı olduğunu bildirib:**

- Yarmarkaların təşkili forması, əlbəttə ki, məni qane etmir. Təşkilati işlərdə problemlər var və problemlərin həll edildiyini də görmürük. Yarmarkalarda məhsullarını satan yenə ticarətçilərdir və qiymətlər də əsas Bakı bazarlarındakı qiymətlərlə eynidir. Problem bundadır ki, ticarətçilər yarmarkalarda yerləri davamlı şəkildə zəbt edir, piştaxtaları əvvəlcədən tuturlar. Məhsul becərən kəndli, fermer yarmarkanın qapısı arxasında qalır. Belə vəziyyətdə qiymət ucuzluğundan söhbət gedə bilməz. Yarmarkalarla qarşıya qoyulan məqsədə nail olmaq üçün nazirlik fermer və ailə təsərrüfatları ilə əvvəlcədən razılıq əldə edərək onların öz məhsullarını yarmarkaya gətirib satışını həyata keçirmələrini təşkil etməlidir. Yarmarkada istehsalçılar iştirak etməlidir, fermerin məhsulunu alıb-satanlar yox. Özünün istehsal etdiyi məhsulu olmayan şəxs yarmarkaya buraxılmamalıdır. Belə olduğu təqdirdə fermer təsərrüfatları yarmarkalarda iştirak edib istehsal etdiyi, əkib-becərdiyi məhsulu satışa çıxaracaq, əhali də alıcı qismində çıxış edəcək. Fermer - istehsalçı gəlir əldə edəcək, əhali də keyfiyyətli məhsulu büdcəsinə uyğun qiymətə ala biləcək. Amma hazırda nə baş verir? İstehsalçı məhsulunu toplayıb gəlir yarmarkaya, görür ki, yerlər tutulub. Ticarətçilər tərəfindən əvvəlcədən piştaxtalar ələ keçirilib. Fermer də məcbur olur, ucuz qiymətə məhsulu satır, çünki özüylə geriyə aparası deyil artıq, ticarətçi də (alverçilər -red.) ucuz qiymətə aldığı məhsulun üzərinə ödədiyi yer haqqını da əlavə edib satışa çıxarır. Ona görə də qiymət yüksək olur. Məhsulu alan istehsalçını düşünmür - nə qədər əziyyət çəkib bu məhsulu becərənədək, necə daşıyıb gətirib piştaxta... Onu düşündürən öz gəliridir. Nə qədər lazımdır o qədər məhsul alır və satır. Problemi həll etmək və həqiqətən də istehsalçının və əhalinin maraqlarını qorumaq istəyirlərsə, istehsalçı olmayanların yarmarkalara girişi qadağan edilməli, yerlərin eyni şəxslər tərəfindən davamlı şəkildə zəbt edilməsinə son qoyulmalıdır. Bu halda daxili rəqabət yaranacaq, fermer çalışacaq ki, daha keyfiyyətli məhsul becərsin, bazara vaxtında çatdırsın, beləcə qiymətlər də əlçatan olacaq.

R.Həsənov qeyd edib ki, yarmarkalarda satış həyata keçirənlərin ticarətçi, yaxud istehsalçı olduqlarını ayırd etmək asan məsələdir:

- Yarmarkalardakı satıcıların çoxu həyətlərdə, binaların qarşısında meyvə-tərəvəz satanlardır. Siz 1-2 dəfə yarmarkaya getsəniz, onları tanıyacaqsınız, eyni adamların davamlı şəkildə piştaxta arxasında dayandığını görəcəksiniz. Təşkilatçılar da bunu bilir, onları tanıyır. Aralarında qeyri-rəsmi sövdələşmə də aparırlar. KTN-in əsas vəzifəsi istehsalçının və əhalinin hüquqlarını təmin etməkdir, ticarətçilərin deyil.

> Yarmarkalardakı satıcıların çoxu həyətlərdə, binaların qarşısında meyvə-tərəvəz satanlardır

**İqtisadçı bildirib ki, fermerlərin məhsulun daşınması və saxlanması problemi var:**

- Bu problemi həll etmək üçün bir neçə ailə təsərrüfatının birləşərək məhsulu bazara gətirməsi daha münasibdir. Söhbət kiçik təsərrüfatlardan gedir. Böyük təsərrüfatlar onsuz da daşınma, saxlanma məsələlərini həll edə bilir. Şəhərə məhsul gətirən fermerin burda gecələməsi üçün də şərait yaradılmalıdır. Əksər fermerlər gecələmək problemi ilə üzləşməmək üçün məhsulunu ticarətçiyə dəyərdəyməzə satıb çıxıb gedir. Amma fermerin gecələmək problemi həllini tapsa, 2-3 gün də artıq qalar və öz məhsulunu özü satar. Çəkdiyi əməyin bəhrəsini görər. Bu problem həll edilsə, yarmarkaların sayı da artacaq. Paytaxtda yarmarka təşkili üçün yerdən çox yer var. 3 yerdə yox, 5 yerdə, 7 yerdə - əhalinin kompakt yaşadığı ərazilərdə təşkil olunar, insanlar da yay mövsümündə münasib qiymətlərə keyfiyyətli məhsul əldə edərlər. Əsas şərt istehsalçı olmayanların yarmarkada satış həyata keçirməsinin qarşısını almaqdır. Bunu müəyyən etmək də asandır. Fermerlərin böyük əksəriyyəti qeydiyyatdan keçmiş təsərrüfat sahibləridir.

**Məlahət Rzayeva**

# Ermənistandakı istefa dalğası böyüyəcək



## *Hər kəs ölkəni gələcəkdə gözləyən xaosdan qaçmaq istəyir*

Ermənistanda seçki sonrası ilk ciddi "yarpaq tökümü" başlayıb. Yerli media xəbər verir ki, Paşinyan yaxın silahdaşını siyasətdən uzaqlaşdırıb. Belə ki, baş nazirin müavini vəzifəsini icra edən Tiqran Avinyan siyasətdən özəl sektora gedir.

Bundan sonra o heç bir vəzifə tutmaq niyyətində olmadığını diqqətə çatdırıb. Qeyd edək ki, Avinyan üzvü olduğu iqtidarı partiyasının - "Vətəndaş müqaviləsi"sinin seçki siyahısına daxil edilməmişdi. Onun İrəvan meri vəzifəsinə namizəd olduğu barədə şayiələr yayılmışdı. Mövzu ilə bağlı Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi, politoloq Tural İsmayılov "Şərq"ə fikirlərini bölüşüb. Politoloq açıqlamasında vurğulayıb ki, hazırda Ermənistanda təkcə hərbi deyil, o cümlədən diplomatik qalmaqal da yaşanır: "Çünki Ermənistanın bütün sahələrdə kadr ehtiyatı demək olar ki, tükənib. Onlar təkcə sərhədləri qorumaq üçün hərbiçi çatışmazlığı ilə üzləşməyiblər. Eyni zamanda diplomat təyin eləməyə də normal kadrlar tapmırlar. Özəlliklə Paşinyanın digər yaxın adamlarından olan Ara Ayvazyanın xarici işlər naziri vəzifəsindən istefası Tiqran Avinyanın da istefasını şərtləndirirdi".

**T.İsmayılov əlavə edib ki, hazırda Paşinyan güvənmədiyi, etibar etmədiyi adamları diplomatik korpusa təyin eləyib səfir və yaxud da konsul göndərmək istəyir:** "Əlbəttə ki, hərbi sferada tam tərəfdarı olmamış, diplomatik korpusda da anti-Paşinyan əhval-ruhiyyəli adamların səfir və konsul təyinatı Paşinyan komandasının içərisində ciddi çatlar yaradır. Tiqran Avinyan başa düşür ki, ölkənin daxili siyasətində hüquq-mühafizə və güc strukturları içərisində vahid komanda nəzarəti mövcud deyil. Eyni zamanda bu xarici siyasətə məhsul olan şəxslərlə bağlı da davamlı xarakter daşıyır. Gələcəkdə Tiqran ölkəni bürüyəcək diplomatik qalmaqal qarşısında yüksək bir vəzifədə, Nazirlər Kabineti səviyyəsində olan qurumlarda təmsil olunmaq istəmir. Ona görə də bu istefa qərarı Paşinyana qarşı atılan addımdan daha çox Tiqran Avinyanın qorxaqlığı və ölkənin gələcəyini gözləyən xaoslardan qaçmaq əlamətidir".

**Aynurə Pənahqızı**

## Paşinyanın Putindən xahişi var

### Ancaq biz şimal qonşumuza narahatlığımızı bildirməliyik



**Çoxları elə düşünürdü ki, Ermənistanda Nikol Paşinyan hakimiyyətini bərpa edəcəyi təqdirdə Azərbaycanla münasibətlər yaxşılaşacaq. Amma görünən bu deyil.**

Belə ki, sərhədin müxtəlif hissələrində ardarda təxribatlar törədilir. Qazaxdakı yanğın, Ağdamda, Tovuzda atəşkəsin pozulması və s. kimi təxribatlar ciddi şübhələr yaradır. Məqsəd nədir? Düşmən niyə bilə-bilə özünü intihara sürükləyir?

**AĞ Partiya sədrinin müavini, politoloq Əhəd Məmmədli "Şərq"ə açıqlamasında bu suallara cavab verdi:** "Bəli, təxribatlar davam edir. Bunlar ya Paşinyanın nəzarəti ilə həyata keçirilir, ya da ona tabe olmayan qüvvələrin əməlidir. İstənilən halda baş nazir səlahiyyətlərini icra edən siyasətçinin Moskvaya tələm-tələsik səfəri İrəvanın Kremldən asılı olduğunu göstərir. Çox güman, Paşinyan Putindən xahiş edəcək ki, rəsmi Bakı təxribatlara cavab verməsin. Çünki bunun özləri üçün baha başa gələcəyini yaxşı bilir. Lakin biz şimal qonşumuza narahatlığımızı bildirməliyik. Bu dəfə bir hərbçimiz yaralandı. Növbəti provokasiyalarda şəhid versək, daxildə vəziyyət qarışacaq. Odur ki, məsələnin qarşısını birdəfəlik almalıyıq".

**Kənan**

## Xaçaturovun vəzifədən atılması gözlənilən idi

### Çünki o, Paşinyana qarşı çıxan hərbçilərdən olub



**Ermənistan Prezidenti Armen Sarkisyan Ermənistan Silahlı Qüvvələrinin 3-cü ordu korpusunun komandanı, general-mayor Qriqori Xaçaturovun tutduğu vəzifədən azad edilməsi haqqında sərəncam imzalayıb.**

Məlumatı dövlət başçısının mətbuat xidməti yayıb. Ermənistan konstitusiyasına əsasən, prezident baş nazirin təqdimatı ilə Silahlı Qüvvələrin ali komandanlığını təyin və tutduğu vəzifədən azad edir.

Q.Xaçaturov 2020-ci il noyabrın 11-də tutduğu vəzifədən istefa verdiyini bildirmişdi. Sonrakı dövrdə o, Ermənistanın Baş naziri Nikol Paşinyana qarşı çıxışlar etməyə başlamışdı. Bundan sonra Q.Xaçaturov barəsində cinayət işi başlamışdı.

**Hərbi ekspert Ədalət Verdiyev "Şərq"ə açıqlamasında bunun gözlənilən olduğunu bildirib:** "O, Ermənistan Silahlı Qüvvələri Baş Qərargahının keçmiş rəisi, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının keçmiş baş katibi Yuri Xaçaturovun oğludur.

Yuri Xaçaturov qurumun baş katibi olduğu vaxt vəzifəsindən kənarlaşdırılmış və həbs edilmişdi. Bu proses ciddi ajiotaj yaratmışdı. Çünki indiyədək oxşar hadisə yaşanmayıb.

Fikrimcə, general-mayor Qriqori Xaçaturov Paşinyana qarşı çıxan hərbçilərdən olub. Seçkilər ərəfəsində mən proqnoz vermişdim ki, Paşinyan qalib gəlsə, həmin generallarla "haqq-hesabı çürüdəcək". Elə də oldu. Və proses Xaçaturovdan başlandı.

Fikrimcə, həmin generalın korpus komandiri olduğu ölkənin Qərb bölgəsindəki insident və bir erməni əsgərinin yaralanması Paşinyanın Xaçaturova qarşı nifrətinin məntiqi yekunu üçün imkan yaratdı".

**Kənan**

# ABŞ şərait yaratdı

## *"Taliban" gec-tez qonşu ölkələrə də hücumlar edəcək*



## Qərb ölkələrinin istəyi budur ki, ilk növbədə zərbə Rusiyaya dəysin

Əfqanıstanda gərgin vəziyyət davam edir. "Taliban" artıq İranla sərhəd ərazilərdən birini nəzarətə götürüb. "France-Press" agentliyinin yaydığı məlumata görə, silahlılar Əfqanıstan-İran sərhədindəki əsas sərhəd keçid məntəqəsini ələ keçirib. "Taliban" nümayəndələri iddia edirlər ki, artıq sərhəddə olan İslam-Kala yaşayış məntəqəsi tamamilə onların nəzarətinə keçib. "Taliban"ın sözçüsü isə "RİA Novosti"yə verdiyi açıqlamasında qonşu ölkələri sərhəd təhlükəsizliyindən narahat olmamağa çağırıb.

Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəisi, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli "Şərq"ə açıqlamasında Əfqanıstanda davam edən gərgin vəziyyətdən danışıb: "Taliban"ın qayıdıb təzədən revanş olaraq hakimiyyəti ələ keçirməsi hansı siyasətin nəticəsidir? Bu son 20 ildə edilən yanlışların, yəni Amerikanın girib orada strateji olaraq digər ölkələrə təsirinin nəticəsidir. Əfqanıstanda, ümumiyyətlə bəlanın əksik olmamasının səbəbi onun strateji mövqeyinə görədir. Çünki onun Çinə, Rusiyaya, İrana, Hindistana yaxınlığı var. Həmçinin, dünyanın əsas ticarət yolları məhz buradan keçir. Qeyd edim ki, qeyri-qanuni ticarətə aid hesab edilən narkoticarətin əsas yollarının bu bölgədən keçməsi də böyük problemdir. Çünki hər kəs ona nəzarət etməyə və gəlib həmin bölgədə də söz sahibi olmağa çalışır. Burda ən böyük söz sahibi şübhəsiz ki, "Taliban" idi. Bu radikal dini qruplar müxtəlif şəbəkələr tərəfindən dəstəklənir və silahlandırılır. İndi "Taliban"ın bütövlükdə ölkəni ələ keçirməsi nədən xəbər verir? Hesab edirəm ki, gec-tez onların ətraf bölgələrə, ölkələrə hücum məsələsi də gündəmə gələcək. Çünki onlar həm də din ixracı ilə məşğuldurlar".

**Ə.Əlibəyli əlavə edib ki, Azərbaycanla yanaşı Türkiyənin artıq həmin bölgədə söz sahibi olması məsələsi gündəmə gəlib:** "Bu, Türkiyənin beynəlxalq münasibətlərdə bundan sonrakı oynadığı rolu daha da qabartması və daha da vacib rol oynaması anlamına gəlir. Məsələ odur ki, heç kim təminat vermir ki, o, qonşu ölkələrə hücum eləməyəcək. Birincisi, Özbəkistanda, Orta Asiyanın müxtəlif ölkələrində, Tacikistanda, o cümlədən Qırğızıstanda demək olar ki, taliblərin çox geniş şəkildə əlaqələri var. Onlara qoşulanların sayı da artmaqdadır. Ona görə də hesab edirəm ki, birinci növbədə bu, Qərb ölkələrinin istəyidir ki, "Taliban" bir çox ölkələrə nəzarət eləsin və ilk növbədə zərbəni Rusiyaya vursun. Əsl mahiyyət də bundan ibarətdir".

**Aynurə Pənahqızı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi**

# Azərbaycan bir örnək ölkədir

## *Dövlət həmişə müxtəlif dini icmaların fəaliyyətinə dəstək verib*

Prezident İlham Əliyev Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında sərəncam imzalayıb. Uzun illərdir ki, Azərbaycanda yaşayan ayrı-ayrı xalqlar və dinlər arasında qarşılıqlı hörmət və etimada əsaslanan yüksək birgəyaşayış mədəniyyəti, dostluq və qardaşlıq mühiti hökm sürür.



Dünyada nümunəvi tolerantlıq məkanına çevrilmiş ölkəmizdə multikultural dəyərlərin daha da inkişaf etdirilməsi, habelə etnik-dini müxtəlifliyin qorunması dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Dövlət-din münasibətlərinin davamlı olaraq təkmilləşməsi, tolerantlıq və mədəni müxtəliflik ənənələrinin təbliği cəmiyyətin mənəvi zənginləşməsinə, dost və qarşılıqlı anlaşma münasibətlərinin möhkəmlənməsinə xidmət edir. Sərəncamda qeyd edilir ki, Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 2 milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 350 min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 350 min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 150 min manat, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna 150 min manat və Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasına 150 min manat, habelə digər qeyri-islam dini icmalarına maddi dəstək məqsədilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fonduna 100 min manat ayrılsın. Maliyyə Nazirliyinə tapşırılır ki, sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlahiyyatçı alim Hacı Atif İsmayılov "Şərq"ə açıqlamasında dövlət başçısının sərəncamını yüksək dəyərləndirib. O qeyd edib ki, prezidentin Azərbaycanda dini qurumlara ayırdığı maliyyə yardımı ilə bağlı sərəncamıyla yaxından tanış olub:** "Ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi, dini sahədə sabitliyə nail olunması, konfessiyalar arasında dözümlülük mühitinin qorunub saxlanılması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin dövlət-din münasibətləri sahəsində qoyduğu bu nümunəvi siyasəti onun layiqli siyasi varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsində Azərbaycandakı dini dözümlülük və tolerantlıq dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirilir. Dövlətimizin başçısının sərəncamları ilə son illər tarixi dini abidələr, ziyarətgahlar bərpa edilir, o cümlədən milli-mənəvi dəyərlərə verilən yüksək qiymətin göstəricisi olaraq silsilə tədbirlər həyata keçirilir. Qeyd edim ki, ölkədə din və dövlət münasibətlərinin bərpa olunması, eyni zamanda dini təminatlarının yerinə yetirilməsi üçün dövlətin bu cür qayğısı çox vacibdir. Həmçinin dövlətin göstərdiyi belə dəstəklər dini işlərin icrası üçün də çox əhəmiyyətlidir. Bu bir daha dövlətimizin məscidlərə, dini ibadətgahlara və dini dəyərlərə göstərdiyi qayğıdır, dəyərdir".

İlahiyyatçı vurğulayıb ki, hər bir qurumun maliyyə dəstəyinə ehtiyacı olduğu kimi ölkəmizdə dini məscidlərin və dini icmalarının da maddi vəsaitə ehtiyacları var: "Qeyd edim ki, həmin vəsait dinin inkişafına və icmalarda maarifləndirmə işlərinin aparılmasında, din xadimlərinin vəsaitlə təmin edilməsində, eyni zamanda hər hansı bir dini ibadətgahlarda çatışmazlığın aradan qaldırılmasında istifadə olunur. Bu da öz növbəsində çox əhəmiyyətli bir məsələdir. Biz dindarlar, eyni zamanda dini kütlə bu cür addımları hər zaman dəstəkləyirik. Təbii ki, bu məsələ dövlət rəhbərliyinin heç zaman qayğısından kənarda qalmayıb. Ələlxüsus da bu gün bizim işğaldan azad olunmuş torpaqlarımızda dini ibadətgahlar yenidən bərpa və təmir edilir. Təbii ki, bu çox əlverişli bir addımdır. Ümid edirəm ki, Dini İşlər üzrə Dövlət Komitəsi də vəsaiti bütün Azərbaycanda dini ibadətgahlara, dini camilərə məqsədyönlü şəkildə sərf edəcəklər. Bu, bir daha daxili dini resursların güclənməsinə, dini abidələrin daha da möhkəmlənməsinə, inkişafına çox böyük qayğı və böyük dəstəkdir. Ümid edirik ki, bu bizi din məsələlərində hər hansı bir təzyiqlərdən, eyni zamanda digər kənar qüvvələrin təsirindən də azaldacaq. Çünki dövlət nə qədər dini camilərə, dini ibadətgah yerlərinə qayğı və dəstək göstərirsə, o zaman artıq maarifləndirmə işləri güclənir, davam edir. Eyni zamanda digərlərdən də asılılıqlar tam azalır".

**Mövzu ilə bağlı Kənan Rövşənoğlu "Şərq"ə açıqlamasında bildirib ki, bu vəsait artıq uzun illərdir ki, prezident tərəfindən ayrılır. O qeyd edib ki, burada əsas məqsəd idarələrin fəaliyyətinin daha yaxşı qurulması, maddi-texniki imkanlarının, digər xərclərinin qarşılanmasıdır:** "Bir şəkildə dövlət dini idarələrin fəaliyyətinə dəstək verir. Bu ianə olduğu üçün xərclənməsi ilə bağlı hər hansı bir tələb yoxdur. Bu vəsaitə dini tədbirlər təşkil olunur, həmçinin işçilərə əməkhaqqı verilir və digər texniki xərclər qarşılanır. Dövlət başçımızın bu sərəncamı təqdirəlayiqdir".

**Aynurə Pənahqızı**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Zamanı çatıb

## *Ölkənin informasiya məkanı iyrənc məxluqlardan təmizlənməlidir*

"Reket jurnalistika" ifadəsi ilə heç vaxt razılaşmamışam. Mənə görə, jurnalistika, jurnalist, media sözləri ilə "reket" sözü təyinatına, təməl mahiyyətinə görə daban-dabana ziddir". Bu sözləri "Xalq Cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli deyib. Baş redaktor vurğulayıb ki, əgər hər hansı bir şəxs "jurnalist" sözünün arxasında gizlənib cinayətkar əməllərlə məşğul olursa, insanların şəxsiyyətini hədəfə alaraq, şantaj vasitəsilə onlardan yararlanmağa çalışırsa, dövlətinə qarşı düşmənlə eyni cərgədə dayanıb savaş açırsa, onun jurnalistikaya, mediaya heç bir aidiyyəti yoxdur:



"Bu əxlaqsız peşə sahibləri o qədər azğınlaşıblar ki, hətta şəhid ailələrindən apardıqları "çəkiliş" üçün ödəniş tələb etməkdən də çəkinmirlər"

"Beləsi reketdir, dələduzdur, fırıldaqçıdır, böhtançıdır, Vətən xainidir, kəsəsi cinayətkardır. Cinayətkarla isə qanunun ən sərt üzü ilə danışırlar! Bir xəbəri ərsəyə gətirə bilməyən, bir cümləsində sözdən çox səhv buraxan, intellekti topuğuna, mədəniyyəti dabanına qədər olan, peşəkar media qurumlarının qapısından 3-5 gündən sonra it kimi qovulan onlarla adam tanıyıram ki, jurnalistikanın "J" hərfinə yaxın gələ bilməsələr də, siyasi şantajdan dələduzluğa kimi, cinayətkarlığın əlifbasını yaxşıca əzbərləriblər. Yeri gələndə utanmadan, əxlaqsızlığın dibinə yuvarlanmış birisinin belə qibtə edəcəyi həyasızlıqla "söz və fikir azadlığı"ndan dəm vurur. Şərəfinin qələminə, qələminin şərəfinə sığınıb əlahəzrət sözə xidmət edənlərə "jurnalistika" dərsi keçirlər. Bəzən tanınmazabilməzə açıla bilən nə varsa - qapı, pəncərə, nəfəslik açılır, yollarına informasiya da daxil olmaqla çeşidli məkanların "xalıları" döşənir. Sosial şəbəkələr, internet resursları üzərindən zəhərlərini bütün cəmiyyətə püskürə biləcəkləri qədər yemlənirlər. Problem təkcə qısaca "reket" kimi səciyyələndirdiyimiz ilanlarda deyil, həm də onlara yem verənlərdədir. Mübarizəni də "zəhər xammalı istehsalçıları"ndan başlamaq lazımdır".

**E.Mirzəbəyli vurğulayıb ki, özlərini bizimlə eyni peşənin təmsilçiləri kimi təqdim edən bu əxlaqsız peşə sahibləri o qədər azğınlaşıblar ki, hətta şəhid ailələrindən apardıqları "çəkiliş" üçün ödəniş tələb etməkdən də çəkinmirlər:** "Bəziləri "vətənpərvərlik" pərdəsi arxasında iyrənc simalarını gizlədərək, "şəhid ailələrinə yardım", "qazilərə dəstək" məqsədilə pul toplayır, bizi biz edən bütün yüksək dəyərləri, mənəvi keyfiyyətləri ayaqlar altına atırlar. Və bütün bunlara son qoymağın zamanı çatıb! Heç bir güzəşt edilmədən, kimsənin gözünün yaşına, haray-həşirinə baxmadan ölkənin informasiya məkanı bu iyrənc məxluqlardan təmizlənməlidir. Bələlərini düz yola gətirmək kimi xam xəyallardan əl çəkmək lazımdır. "Qozbeli qəbir düzəldər".

**İsmayıl**

# Professor hiddətləndi!

## "Allah onların dərsini versin!"



Şükür, müharibə bitdi. Torpaqlarımızı azad etdik, düşmənlərimizə qalib gəldik. Amma elə bu vaxt daxildəki düşmənlər, ermənilərdən fərqlənməyənlər üzə çıxdılar. Belə ki, son günlər özlərini media təmsilçiləri kimi təqdim edən bir qrup şəxs şəhidlərimizlə bağlı yazılar, videosüjetlər hazırlamaq adı ilə qəhrəmanlarımızın ailələrinə, yaxınlarına müraciət edir və onlardan "şirinlik" istəyirlər.

Valideyn yazıq da deyə bilmir ki, ağzın heç şirin olmasın... Çünki mövzu övladdır, cavan oğuldur. Ona görə səslərini çıxarmadan 100, 150 manat verirlər. Və sonradan həmin "jurnalistlərin" təkcə mediamızın deyil, cəmiyyətimizin üz qarası olduğu aşkara çıxır.

*Şəhid Adəm Heydərovun atası İkram Hacıyev məsələ barədə bunları deyib:* "Özünü təqdim etdi və dedi ki, artıq çəkiliş etmək üçün evimizdədir. Mən ona bu barədə heç müraciət etməmişdim. Hadisə təxminən 1 həftə - 10 gün qabaq olub. Evdə, qəbiristanlıqda çəkilişlər bitdikdən sonra dedi ki, çəkiliş 140 manat edir, amma 100 manat versəm, kifayətdir. Uşağımın adı çəkilən yerdə başqa nəsə deyə bilmədim və 100 manat verdim. Adəmin adı olan yerdə lap dilənib 10 min manat da verərəm".

*Belə valideynlər, bacı-qardaşlar çoxdur.*

**BDU-nun Jurnalistika fakültəsinin professoru Cahangir Məmmədli "Şərq"ə açıqlamasında xoşagəlməz hadisəyə reaksiya bildirib:** "Şəhid" sözü "Qurani-Kərim" sözünə bərabərdir. Hətta ondan da yüksəkdədir. Çünki müqəddəs kitabın özündə şəhidin kim olması dəfələrlə izah edilir. Şəhid sözü olan yerdə kimsə nəsə umarsa, o, dünyanın ən vicdansız adamıdır. Bələləri hardan gəlirlər, harda yetişirlər?! Onlara jurnalist vəsiqəsini kim verir? Bildiyim odur ki, həmin "jurnalist"lərin rəhbərləri də özləri kimidir. Bu cür adamları məsuliyyətə cəlb etmək lazımdır".

**C.Məmmədli reketlərə cəza tələb etdi:** "Medianın İnkişafı Agentliyi media ilə bağlı yeni Qanun layihəsini bu günlərdə Milli Məclisə təqdim edəcək. Fikrimcə, orda reketçilərlə bağlı xüsusi müddəa olmalıdır. Onlar ciddi cəzalanmalıdırlar. Lakin ictimai qınaq Qanundan da güclüdür. İctimai rəy belə "jurnalistləri" elə günə salmalıdır ki, onlar analarının, övladlarının, həyat yoldaşlarının qarşısında xəcalət çəkməlidirlər. İctimai tənqid onları yumağa döndərməlidir. Onları məhv etmək lazımdır. Çünki jurnalistikamıza belələrindən artıq ziyan verənlərin olduğuna inanmıram. Jurnalistikanın funksiyalarını anlayanlar yaxşı bilirlər ki, mediamızın ən müqəddəs və prioritet mövzusu şəhidlərlə bağlıdır. Bu mövzu bitən deyil. Əsl, həqiqi, vicdanlı həmkarlarımız nəinki qəhrəmanlarımızın adını əbədiləşdirməli, həm də reketlərin, bu əmələ əl atanların dərsini verməlidirlər. Allah onların dərsini versin!".

**Kənan**



## Peşə məktəblərinin inkişafı dövrün tələbidir

### "Almaniyada universitetdən çox peşə məktəbi var"

**Türkiyə-Azərbaycan Peşə Təhsili Qurumunun Əsasnaməsi imzalanacaq.**

Bu, Türkiyə-Azərbaycan iqtisadi əməkdaşlığına dair fəaliyyət planında əksini tapıb. Sənəddə qeyd edilib ki, 2021-ci ildə Türkiyə-Azərbaycan Peşə Təhsili Qurumu Əsasnaməsi qarşılıqlı razılaşma ilə tamamlanacaq və imzalanacaq. Bu işlərin həyata keçirilməsi Azərbaycan və Türkiyənin Təhsil nazirliklərinə tapşırılıb.

**Təhsil eksperti Nadir İsrafilov "Şərq"ə açıqlamasında sözügedən təşəbbüsü yüksək qiymətləndirib:** "Təəssüf ki, peşə təhsili uzun müddət diqqətdən kənarda qalmışdı. Sonradan başa düşdülər ki, bu sahə müasir dövrün tələbidir. Beləliklə, maraq artdı, peşə təhsili haqqında xüsusi Qanun qəbul olundu. Bu sahədə Türkiyə ilə əməkdaşlığa başladıq. Peşə təhsilinə maraq təxminən otuz faiz çoxalıb. Nəzərə almaq lazımdır ki, Avropa ölkələri məhz peşə təhsili sayəsində tərəqqi edir. Almaniyada ali məktəblərdən çox peşə məktəbləri var. Əlbəttə, bu, təsadüfi deyil. Sadəcə, yeni iş yerləri açılmalıdır ki, peşə məktəbini bitirənlər işsiz qalmasınlar".

**Kənan**



## Ölkənin baş pediatrı açıqladı

### 12 yaşından yuxarı uşaqlara da COVID-19 vaskini vurula bilər

**"Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən "Pfizer" peyvəndinin 12 yaş üstü uşaqlara vurula bildiyi təsdiqlənib".**

Bunu Səhiyyə Nazirliyinin baş pediatrı Erkin Rahimov deyib.

Onun sözlərinə görə, digər peyvəndlərdə tədqiqatlar aparıldığı üçün onların istifadəsi ilə bağlı dəqiq məlumat yoxdur.

"İnanıram ki, peyvəndlərin gələcəkdə bir neçəsinin də uşaqlara vurula bilməsi təsdiqlənəcək. Risk qrupuna aid uşaqlara COVID-19 vaskini vurula bilər. Bunlar xroniki xəstəliyi, böyrək, ürək çatışmazlığı və s. xəstəliklərdir. Artıq bəzi uşaqlarda xəstəliyin ağır nəticələri olduğuna görə onların da peyvənd olunması lazımdır", - bildirib.

# Təhsildə islahatları görüntü xatirinə etmək olmaz

### *Yoxlama, monitorinq aparılır, amma Azərbaycan insanı haqlı olaraq təhsildən yenə də narazıdır*



Təhsildə Keyfiyyət Təminatı Agentliyi Bakı, Abşeron, Sumqayıt, Gəncə və Şəki ərazisində yerləşən 137 məktəbdə monitorinq aparıb. Təhsil Nazirliyindən verilən məlumata görə, monitorinq nazirliyin "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən ümumi təhsil müəssisələrində monitorinqin aparılması barədə" əmrinin tələblərinə uyğun olaraq həyata keçirilib.

Monitorinq nəticəsində yoxlama aparılmış 68 dövlət məktəbində müxtəlif sayda qayda pozuntuları aşkar edilib. Qayda pozuntuları aşkar edilmiş ümumi təhsil müəssisələrinin rəhbərləri ilə bağlı əmək funksiyalarını keyfiyyətsiz yerinə yetirdiklərinə, əmək müqaviləsi ilə müəyyənləşdirilmiş vəzifələrin icrasına səhlənkar yanaşdıqlarına görə müvafiq qaydada intizam tədbirləri görülüb. 1 məktəb rəhbərinə sonuncu xəbərdarlıqla şiddətli töhmət, 5-nə töhmət verilib, 62-nə isə xəbərdarlıq edilib.

**Sözügedən yoxlamalar barədə "Şərq"ə açıqlama verən tarix elmi üzrə fəlsəfə doktoru, təhsil eksperti Kamran Əsədovun sözlərinə görə, təhsil elə bir sahədir ki, oradakı islahatları görüntü xatirinə etmək olmaz:** "Təhsil bir neçə komponentdən ibarətdir: təhsil alan, təhsil verən və məkan. Keyfiyyət yoxlaması apararkən düşünürük ki, görək bu 3 komponentdən hansı təhsilin keyfiyyətinə mane olur. Bəlkə şagirdlərimiz və ya dərsliklərimiz pisdir? Bir sözlə, konkret olaraq yoxlamalar aparmaq lazımdır ki, keyfiyyətə mane olan məqamlar tapılsın.

Məktəblərdə müvafiq araşdırmalar aparılır, ancaq yoxlanılan sahələrin heç biri bilavasitə təhsilin keyfiyyətinə təsir göstərmir. Məsələn, məktəblərdə pandemiya dövründə otaqlarda havalanmanın necə olduğunu yoxlayırlar. Bununla bağlı məktəbi cərimələməyə nə əsas var? Çünki məktəblər dövlət tərəfindən tikilib, özəl qurum deyil".

**Ekspert təəssüflə qeyd edib ki, ölkəmizdə bəzi məktəb direktorları ştat vahidlərindən düzgün istifadə etmirlər:** "Məsələn, kiməsə təmizlikçi olaraq işə götürüblərsə, həmin şəxsə məktəbin digər işlərini də tapşırırlar. Bütün bunlar direktor tərəfindən əmək və vəzifə bölgüsünün düzgün aparılmamasından irəli gəlir.

Təhsildə Keyfiyyət Təminatı Agentliyi qısa müddətdir ki, fəaliyyətə başlayıb.

Bu agentlik məktəblərdə yoxlama və monitorinqlər edir. Ümid edirik ki, monitorinqlər keyfiyyətə müsbət təsir göstərəcək. Çünki bu gün Azərbaycan insanı haqlı olaraq təhsildən narahat və narazıdır. Bu, bizim üçün ciddi problemdir. Hesab edirəm ki, əmək nizamnaməsinin tələbləri pozulan məktəblərlə bağlı daha ciddi tədbirlər görmək lazımdır ki, digərlərinə dərs olsun. Belə yoxlamaların formal xarakter daşımasını müsbət hesab etmirəm. Ümumilikdə təhsil sistemi mütəmadi olaraq özündə yoxlamalar tələb edən sahədir. Yəni məsul şəxslər məsələyə ciddi yanaşmalıdırlar ki, fəaliyyətlərində qanunsuzluğa yol verməsinlər. Elə məktəblər var ki, gedib orada yoxlama aparmayıblar. Səbəb nədir? Bunun özü isə müəyyən qədər ziddiyyət təşkil edir".

**Yeganə Bayramova**

# Gənc ailələrlə əvvəl söhbət aparılacaq

*Boşanmaq istəyənlər birbaşa məhkəməyə müraciət etməyəcəklər*

Ötən gün Milli Məclisin iclasında nikah müqaviləsi və onun məzmununa dəyişiklik edilib. Dəyişikliyə əsasən, artıq boşanmaq istəyənlər birbaşa məhkəməyə müraciət etməyəcəklər. İclasda üçüncü oxunuşda müzakirəyə çıxarılan Ailə Məcəlləsinə təklif edilən dəyişikliyə əsasən, nikah müqaviləsinə mediasiyaya dair şərtlər daxil edilib.

Layihəyə əsasən, bundan sonra ailə münasibətlərindən irəli gələn mübahisələr mediasiya yolu ilə həll oluna bilər. Beləliklə, ailə münasibətlərindən irəli gələn münasibətlərlə bağlı məhkəməyə müraciət etməmişdən əvvəl ilkin mediasiya sessiyasında iştirak tələb olunur. Qeyd edək ki, Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 12-ci bəndlərinə uyğun olaraq, mübahisələrin alternativ həlli üsullarından olan mediasiyanın təşkili sahəsində ictimai münasibətləri tənzimlənir. Həmçinin mülki işlər və iqtisadi mübahisələr (xarici elementli mübahisələr də daxil olmaqla); ailə münasibətlərindən irəli gələn mübahisələr; əmək münasibətlərindən irəli gələn mübahisələr; inzibati hüquq münasibətlərindən irəli gələn mübahisələr mediasiyanın fəaliyyət sahəsinə daxil ediləcək. Qanuna dəyişiklik müzakirələrdən sonra səsverməyə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

**"Ailə Dünyası" Ailələrə Hüquqi Yardım İctimai Birliyinin sədri Gülayə Səfərova "Şərq"ə yenin qanun layihəsindən danışıb. O qeyd edib ki, ailə münasibətlərindən irəli gələn münasibətlərlə bağlı məhkəməyə müraciət etməmişdən əvvəl ilkin mediasiya sessiyasının aparılması çox təqdirəlayiq haldır:** "Fikrimcə, yaxşı olardı ki, gənclərlə ilk olaraq evlilikdən öncə söhbətlər aparılsın. Düzdür, bizim təşkilat daim ailə quracaq gənclərlə söhbətlər aparır. Lakin onlarla nə qədər söhbət eləsək də, bunun bir o qədər də effekti olmur. Çünki onlar artıq başlarına evlənməyi məqsəd qoyublar. Burada bizim əsas məqsədimiz nədir? Biz çalışırıq ki, söhbətlər aparaq ki, ailələr maddiyyat üzərində qurulmasın. Əsas məqsədimiz odur ki, gənclər daha yaxından biri-birlərini tanısınlar, həmçinin valideyn basqısı olmadan ailə həyatı qursunlar. Yəni gələcəkdə ailələri dayanıqlı olsun. Təbii ki, bununla bağlı bizim qurum tərəfindən dəfələrlə maarifləndirmə işləri aparılır və bir sıra layihələr həyata keçirilir. Amma çox təəssüf ki, yenə də boşanmalar müşahidə olunur".



Ekspertlər də hesab edir ki, ilkin mediasiya sessiyasının aparılması çox təqdirəlayiq haldır

**G.Səfərova diqqətə çatdırıb ki, məhkəmələrdə psixoloji mərkəzlərin yaradılması daha məqsədəuyğundur:** "Qeyd edim ki, məhkəmələrə boşanmağa gedən şəxslərə üç ay vaxt verilir. Lakin bu müddət ərzində gənclərlə heç bir söhbət aparılmır. Çox istərdim ki, məhkəmələrin özündə psixoloq ayrılsın, yaxud da ki, onlar qeyri-hökumət təşkilatlarıyla əməkdaşlıq etsinlər. Düşünürəm ki, bu işin o zaman böyük effekti olar. Nə üçün? Çünki üç ay müddətində ola bilər ki, kimsə özbaşına gedib boşanmaya ərizə verib. Müəyyən bir müddət keçəndən sonra həmin şəxslərlə söhbət aparılmır. Bunun nəticəsində sonda onlar biri-birlərinə güzəştə getmir. Bir-birindən addım atmağı gözləyirlər, amma bu addım da atılmır. Heç biri addım atmadığı üçün qürurlarına yenilmirlər və boşanırlar. Bəlkə də onlarla söhbət aparılmış olsa və yaxud da psixoloji yardım göstərilmiş olsaydı, onun çox böyük effekti olmuş olardı və boşanmanın qarşısı alınardı. Ona görə də bu yeni qanunu alqışlayıram. Hesab edirəm ki, insanlar məhkəməyə ərizə verməmişdən öncə onlarla müəyyən danışıqlar aparılmalıdır. Təbii ki, bununla da gələcəkdə boşanmaların qarşısı alınar".

**Aynurə Pənahqızı**



# Bu il çiyələkdən ikiqat gəlir əldə ediblər

*Çünki artıq sahibkarlar yerli yox, xarici, dadı olmayan çiyələk sortları yetişdiriblər*

Bu il Azərbaycanda çiyələk daha çox məhsuldar olub və fermerlər ikiqat gəlir əldə ediblər. DAİM-də verilən məlumata görə, bu il 500 hektar sahədən 7 min tonda çox çiyələk yığılıb. Ötən il isə 450 hektar sahədən 6500 ton çiyələk yığılıb. Kartof, taxılçılıq kimi sahələrin ənənəyə çevrildiyi Cəlilabad rayonunda çiyələk artıq təkcə daxili bazarlara deyil, xarici bazarlara da çıxarılır. Fermerlər builki mövsümdən xeyli razıdırlar.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən iqtisadçı-ekspert Rauf Qarayev qeyd edib ki, əgər məhsulun məbləğ yüksəkdirsə, bu, sahibkarın xeyrinədir:** "Bu il çiyələyin ən aşağı qiyməti 1 manat 50 qəpik - 2 manat olub. Ümumiyyətlə, artıq demək olar ki, dərmansız məhsul yetişmir. Sahibkar məhsulunu daha baha satmağa çalışır, istehlakçı isə daha ucuz qiymətə məhsul almaq istəyir. Ola bilər ki, bu il sahibkarlar qıtlıq olduğundan çiyələkdən daha çox vəsait əldə ediblər. Yerli çiyələk sortu artıq öz əhəmiyyətini itirib. Baxmayaraq ki, şirinliyinə görə, ona üstünlük verənlər az deyil. Bir faktı deyim ki, bu il qıtlıq istehlakçını məcbur etdi ki, adi yararsız hala düşmüş çiyələyi alsın. İndi sahibkar əsasən xarici sort və dadı olmayan, görünüşü yaxşı olan çiyələklərə üstünlük verir. Səbəb odur ki, bu, geni dəyişdirilmiş çiyələk sortları daha dözümlüdür. İnsanlar isə məcbur olub bu çiyələkləri alır".

İqtisadçı əlavə edib ki, onların xarici bazara göndərilməsi də, yerli sahibkara sərf edir: "Çünki bu məhsullar yolda gec xarab olur. Hesab edirəm ki, çiyələyin baha olması və əhalinin bundan az faydalanmasının nəticəsi özünü göstərəcək. Bildiyiniz kimi, insan hər mövsümə meyvə, giləmeyvə, tərəvəz qəbul etməlidir. Bunun qəbul etməsi ölkə üzrə xəstəliklərin də azalmasına, immunitetin güclənməsinə gətirib çıxarır. İndi təsəvvür edin ki, əhali bundan məhrum olur. Müxtəlif səpkili virusların tuğyan etmədiyi zaman ölkə əhalisini zərbə altına qoyur. Dövlət tərəfindən tədarük məntəqələrinin açılmasına baxmayaraq, bu effekti vermir. Ölkə bazarında da, kənd təsərrüfatı məhsullarının qiymət tənzimlənməsinə təsir etmir. Məhsullar daha yüksək və ya həddən artıq aşağı qiymətə satılır. Kənd təsərrüfatı sahəsində ciddi boşluqlar var".

*R.Qarayev vurğulayıb ki, fermerlərə kredit verilməsində müəyyən baryerlərin olması ölkə kənd təsərrüfatına ciddi təsir edə bilər:* "Gələcəkdə belə məsələlərin artması məhkəmə proseslərinin sayını artıra bilər. Kənd təsərrüfatı nazirimiz İnam Kərimov yaxşı menecerdir. Amma bu sahədə ciddi nöqsanlar olduğu üçün, hesab edirəm ki, kadr və baxış bucağını dəyişmək vaxtıdır.

**Aynurə Pənahqızı**

# Pomidorlara müxtəlif kimyəvi maddələr vururlar

*Ona görə çoxunun içi qırmızı olmur*



İndi pomidorun ən ləzzətlə yeyildiyi mövsümlərdən biridir. Əsasən may aylarında pomidor almağa tərəddüd edənlər onun gübrəli olması və istixanalarda yetişdirildiyini düşünürlər. İstehlakçıların fikrincə, növbəti aylarda satışa çıxarılan pomidorlar istixanalarda yetişdirilmədiyindən gübrəsi də az olur, ona görə gözləmək məsləhətdir.

Ancaq indi yay olsa da, tamamilə təbii və dərmansız pomidorların satışda olduğunu söyləmək çətindir. Jurnalist Mahir Xəttab sosial şəbəkədə "Araz" Supermarketdən aldığı pomidorun fotosunu paylaşıb. Görüntüdən açıq-aydın bəlli olur ki, tərəvəzin içi kifayət qədər yaşıl rəngdədir. İstehlakçıların gileyinə səbəb olan digər məsələ isə belə pomidorların insan orqanizmi üçün olduqca zərərli olmasıdır.

**Mövzu barədə "Şərq"ə danışan qida təhlükəsizliyi üzrə ekspert Elsevər Fərzəliyev bildirib ki, pomidor ştilləri müxtəlif olduğundan qara rəngli, sarımtıl və qırmızı pomidor növlərinə rast gəlmək olar:** "Lakin sözügedən pomidorun satışda olması tamamilə başqa məsələdir. Yəni pomidorun yetişdirilməsi zamanı ona verilən süni sintez gübrələrin kifayət qədər yüksək miqdarda olması bu tərəvəzin daxilindəki toxumaların inkişaf etməsinə imkan vermir. Pomidora qırmızılıq verən "likotin" adlı kimyəvi birləşmə var. "Likotin" inkişaf edə bilmədikdə pomidorun içi yaşıl rəngdə olur. Bir daha qeyd edim ki, pomidorun xüsusi sortları var. Yaşıl, qara, qırmızı, sarımtıl və çəhrayı rəngdə olan pomidorlar çoxdur. Amma pomidorun içinin qırmızı olmamasının səbəbi nitrat gübrələri miqdarının çox olması ilə bağlıdır".

**E.Fərzəliyev vurğulayıb ki, ölkə başçısının sərəncamı ilə bu işlərə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) nəzarət edir: "AQTA-nın da nəzdində Qida Təhlükəsizliyi İnstitutu var.** Ölkəyə gətirilən, burada istehsal edilən və ölkədən çıxarılan bütün qida məhsullarına AQTA-nın nəzarəti olur. Hər iki qurum bu durumla bağlı araşdırmalar aparır, məhsulların tərkibini yoxlayır və yekun qiymətlər verilir ki, filan məhsul qidalanma üçün əlverişlidir, ya yox. Qurum eyni zamanda məhsulların tərkibində insan orqanizminə mənfi təsir göstərə biləcək komponentləri müəyyənləşdirir. Agentlik bu sahədə mütəmadi yoxlamalar aparır və mənfi durum aşkarlandığı halda məsələ ölkə mətbuatına çıxarılır".

**Yeganə Bayramova**

# Səmra Rəhimlinin klipində zərərli vərdişlər təbliğ olunur



Müğənni, "Eurovison 2016" təmsilçimiz Səmra Rəhimli "AZN" adlı yeni klipini yayımlayıb. Lakin ifaçının klipi ictimaiyyətdə birmənalı qarşılanmayıb. Onun ekran işindəki açıq-saçıq görüntülər, narkotikdən istifadəyə dair məqamlar diqqət çəkib.

*İctimaiyyət məsələyə böyük etirazını bildirməlidir*



"Hərtərəfli psixoloji tərbiyə altında olan gənclər musiqidən narkotik vasitələrə aludəçiliyi, həyatı meşşan formada keçirməyi öyrənirlər"

Həmçinin Səmra klipdə tanınmış şair Mirzə Ələkbər Sabirin fotosundan da istifadə edib. Sənətçinin açıq-saçıq geyimdə şairin tablosunun yanında dayanması müzakirələrə səbəb olub. Bu, M.Ə.Sabirə qarşı hörmətsizlik kimi qəbul edilib.

**Mövzu haqda "Şərq"ə danışan yazıçı-kulturoloq Aydın Xan Əbilov deyib ki, klipdə zərərli vərdişlər təbliğ olunub:**

"Guya qiymətli daş-qaş göstərilir. Lakin son vaxtlar elliklə mübarizə apardığımız "patı", "şüşə" kimi narkotik vasitələrin birbaşa reklamı gedir. Qrup şəklində qızların, oğlanların yarıçılpaq rəqsi yer alır. Həmin mahnıya da əsasən yeniyetmələr, gənclər qulaq asır. Bu mesajın verilməsini zərərli bir hal kimi qiymətləndirirəm. İctimaiyyət məsələyə böyük etirazını bildirməlidir. Mirzə Ələkbər Sabirin fotosu daha mədəni formada göstərilə bilərdi. Amma sintetik narkotik vasitələrin obrazlı nümayişini, digər zərərli halların təbliğini başa düşmək olmur. Bu, Amerika və Avropa cəmiyyəti üçün məqbul sayıla bilərdi. Azərbaycan kimi oturuşmuş, kövrək ictimai, psixoloji duruma malik, savadsızlığın baş alıb getdiyi toplum üçün belə kliplərin nümayişi mənfi haldır. "YouTube" platformasından uşaqdan-böyüyə hər kəs istifadə edir. Məsələn, uşaq bir çizgi filmi izləyəndə, həmin klipi də görə bilər. Onun alt şüuruna, psixologiyasına uyuşdurucular, narkotik vasitələr, dələduzluq kimi vərdişlər yazılacaq. Biz cəmiyyəti, gənclərimizi hara aparırıq? Ona görə etiraz etməliyik".

**Ekspert bu kimi hallarla bağlı əxlaq, mənəviyyat və mədəniyyət komissiyasının yaradılmasına ehtiyac olduğunu söyləyib:**

"Belə məsələlərə vaxtında və kəskin reaksiya verilməldir. Xanım istəyirsə, erotik, pornoqrafik klip də çəkdirə bilər. Dünya ulduzlarının iki variantda klipləri hazırlanır. Birinci, insanların ailəlikcə baxa biləcəyi formada, ikinci isə erotik, pornoqrafik elementlərdən istifadə etməklə. Lakin ikinci növ kliplər şəxsiyyət vəsiqəsi istənilən platformalarda yayımlanır. Çox az adam onları izləyə bilir. Bizdə isə istədiklərini çəkib saytlarda və "YouTube" kanallarında yerləşdirirlər. Təəssüf ki, ciddi saytlarda da sözügedən klipi yayımladılar. Cəmiyyətimizdə belə işlər görmək olmaz. Hərtərəfli psixoloji tərbiyə altında olan gənclər musiqidən narkotik vasitələrə aludəçiliyi, həyatı meşşan formada keçirməyi öyrənirlər. Bunun da axırı yaxşı qurtarmayacaq".

**Samirə Ərəblinski**

## Flora Kərimova nəvəsini itirib

Xalq artisti göz yaşlarını saxlaya bilməyib



**Xalq artisti Flora Kərimovaya ağır itki üz verib. Onun qızı Zümrüd körpəsini itirib.**

"Şərq" xəbər verir ki, o, bu barədə "Xəbər-Ətər" proqramında danışıb. Sənətkar göz yaşlarını saxlaya bilməyib:

"Doğrudan da xoşbəxt idim. O qədər xoşbəxtliyimi dilə gətirib, onunla öyündüm ki, nəvəmi itirdim. Gərək dinməyərdim, balam orada əziyyət çəkdi. Qızımın ailəsi gözəldir, qayınanası onu çox sevir.

Lakin qanadım sındı. Qızım mənimlə optimist danışır, qayınanası isə deyir ki, o, xısın-xısın ağlayır. Bunu dedim, yəqin sevinənlər olacaq. Bir neçə aydan sonra deyəcəklər ki, Allah qoysa, sabah nəvəniz gələcək.

Onu söyləməsinlər deyə açıqladım. Bu acını təkrar yaşamamaq üçün indi deyirəm. Nə olursa olsun, mən "Floruçka"nın yolunu gözləyirəm. Balaca uşaq anasının ətəyindən tutub gəzir. İnanın, onun evdə elə gəzməyini hiss edirəm, bu xəstəlikdən sağala bilmirəm. O qədər sarsıldım ki..."

*Qeyd edək ki, xalq artistinin qızı ikinci dəfə Britaniya vətəndaşı olan Azərbaycan əsilli biznesmen ilə ailə həyatı qurub. F.Kərimova aylar öncə nəvəsinin dünyaya gələcəyini söyləyib. Hətta o, uşaq qız olsa, Flora adını verəcəklərini bildirib.*

**Samirə**

## Xoşqədəm Hidayətqızı iradlara cavab verdi

"Həyat yoldaşım türkiyəlidir, Anadolu türkcəsində danışmağım normaldır"



**Aparıcı Xoşqədəm Hidayətqızına sosial şəbəkələrdə Anadolu türkcəsində danışdığı üçün irad tutublar.**

*"Şərq"in məlumatına görə, o, tənqidlərə instaqram hesabında açdığı canlı yayımda cavab verib. Aparıcı övladlarının və həyat yoldaşının türkiyəli olduğunu söyləyib:* "Onlara necə deyim ki, türkcə danışmayın? Beş gün Türkiyədə yaşayıb türkcə danışmıram ki... Uşaqların nənələri, dədələri, bibiləri, dayələri türkdürlər. Türkiyədə bağçaya gedirlər. Əgər azərbaycanlı bir kişi ilə evli olsam, onunla türkcə danışsam, siz haqlı olardınız. Amma mənim həyat yoldaşım türkdür. Bu da normaldır..."

Bir izləyicisi aparıcıdan böyük oğlunun harada yaşadığını soruşub. X.Hidayətqızı bu sözləri deyib: "Böyük oğlum mənimlə yaşayır. Evlənməyib, subaydır. Ailə qurandan sonra azaddır. Ailəmizdə ciddi qanunqaydalar var. Kim harada gəldi qala bilməz".

*Qeyd edək ki, X.Hidayətqızı ikinci dəfə türkiyəli ulduz Doğuşla evlənib. Onların iki övladı dünyaya gəlib. Aparıcının ilk evliliyindən də bir oğlu var.*

**Samirə**

# "Xoşbəxt valideynəm"

"Uşaqların yanında nə etsən, onu götürürlər. Bəzi ailələrdə uşaqlara paxıllıq öyrədirlər. Əksinə, pisliyə belə yaxşılıqla cavab vermək lazımdır.



*Elza Seyidcahan: "Hər zaman uşaqlarıma diqqət göstərmişəm"*

Xoşbəxt valideynəm. Məsələn, oğlum musiqi sahəsindədir. Onun haqqında mənə xoş sözlər deyirlər. Söyləyirlər ki, sanki sizin oğlunuz deyil, çox sadədir. Gəlinimlə də aram yaxşıdır. Oğlumun 6 il övladı olmadı. Hər zaman çalışmışam ki, onun ailəsi möhkəm olsun. Ələkbərin deyil, gəlinimin yanında olmuşam. Ona həyatı başa salmışam".

"Şərq" xəbər verir ki, bu sözləri "Bu Ana kimi" proqramında Əməkdar artist Elza Seyidcahan söyləyib. O, ailə üzvləri haqda bunları deyib: "Hər zaman uşaqlarıma diqqət göstərmişəm. Hətta konservatoriyada təhsil alanda da onları qayğıdan kənar qoymamışam, gözümdən uzaq olmayıblar. Qızım az yaşından evi idarə edib. Ciddiliyimlə sevgim yarı yarıyadır. Onları döyməsəm də, sərt söz demişəm. Balalarımın böyüməsində anam çox əziyyət çəkib. Oğlum Bülbül adına musiqi məktəbində oxuyurdu. Skripkada bir texniki problem yarananda, ifa etmək olmur. Utanırdım, az qalırdım Ələkbəri məktəbdən çıxarım. Çünki skripkanın simi qırılırdı, gedib yeni sim almalı olurdum. Düşünürdüm ki, anama necə deyim ki, Ələkbərin skripkasının simi qırılıb, yenisini almaq üçün pul lazımdı. Anam isə ən son manatına qədər uşaqlara xərcləyirdi. Qızım hüquq fakültəsində təhsil alıb. Ona deyirəm ki, öz işini davam etdir. Səmərrux hiperaktiv olduğu üçün kiməsə etibar edə bilmir. Qızım çox gözəl müəllimdir. Nəvəm üç dildə - rus, ingilis, Azərbaycan dilində dil açdı".

**Samirə**



## Meyxanaçını sevənlər Zaura irad bildirdilər

"Onun qarnına görə dəvət etmisiniz, ya meyxanası üçün?"

**Meyxanaçı Orxan Lökbatanlı "Həmin Zaur" proqramında qonaq olub.**

Bu zaman aparıcı Zaur Kamal ona "110 kilo da meyxanaçı olar" sualını ünvanlayıb.

"Şərq" xəbər verir ki, meyxana ustası onun sualını gülərək qarşılayıb və bunları söyləyib: "Yüz on dörd kiloqramam. Mən pandemiya dövründə evdə oturmaqdan kökəldim, əvvəl ora-bura qaçırdım. Toylar başlayıb yenə qaçhaqaç olacaq".

Lakin bu video sosial şəbəkələrdə birmənalı qarşılanmayıb. İstifadəçilər və meyxanaçının sevənləri Zaura irad bildirib.

**Məsələn, Nihad Əhmədullayev adlı istifadəçi bu şərhi yazıb:** "Onun qarnına görə dəvət etmisiniz, ya meyxanası üçün? O, çox gözəl meyxana deyəndir".

**İbrahim İncəoğlu:** "Göbək rəqsi etmir ki... Şairdir, sənəti var, meyxana deyir, şeir yazır".

**Samirə**




## Azercell-in rəqəmsal xidmətləri "Umico"da!

**Ölkənin lider mobil operatoru Azercell rəqəmsal xidmətlərini müştəriləri üçün daha da əlçatan edir! Artıq Azercell abunəçiləri "Umico" platforması üzərindən Azercell-in BluTV, Sber-Zvuk, IVI, Bookmate, NNTV kimi rəqəmsal həllərini aktiv edə bilərlər.**

Xidmətdən istifadə qaydası çox sadədir. Bunun üçün öncə "Umico" tətbiqini "App Store" və ya "Play Store"dan yükləmək lazımdır. Daha sonra "Umico"da "Bonuslar" səhifəsinə keçid edib "Azercell - Keşbekli xidmətlər" bölümü seçilməlidir.

Tətbiq vasitəsilə Azercell-in rəqəmsal həllərinə günlük, həftəlik və aylıq paketlər şəklində qoşulmaq mümkündür. Qeyd edək ki, hazırda xidmət haqqı Azercell mobil nömrəsinin balansından tutulur.

# Oğruların tualetindən qızıllar çıxdı

*(Əvvəli səh: 16-da)*



Dəstə başçısı isə 17 yaşlı Ç.F. imiş. Bu şəxs yetkinlik yaşına çatmadığı üçün barəsində Uşaq Şöbə Müdirliyində istintaq hərəkətləri aparılıb.

*Əməliyyatçılar zinət əşyalarını çətinliklə dəlikdən çıxarıb*

Şəxsin ilk dəfə 13 yaşındaykən oğurluq etdiyi də məlum olub. Dəstə başçısının adı hələ açıqlanmasa da polis tərəfindən indiyədək 53 dəfə yaxalandığı bilinir. Şübhəlilərin oğurluq etdiyi anlarsa təhlükəsizlik kameraları tərəfindən görüntülənib. Oğrular 3-4 nəfərlik qruplarla, adətən səhər saatlarında evlərə daxil olur, açarla bağlanmamış mənzillərin qapılarını kredit kartları, rengten kağızı materialları ilə asanlıqla açırmışlar. Ələ keçirilən oğurluq əşyalar arasında böyük miqdarda zinət əşyaları, qədim saatlar, əşyalarla yanaşı, oğruların istifadə etdikləri alətlər də sübut olaraq götürülüb. Oğruların toplaşdığı mənzillərin birində isə əməliyyatçılar qızıl və zinət əşyalarının unitazın içində gizlədildiyini görüblər. Əlcək geyinən əməliyyatçı zinət əşyalarını çətinliklə dəlikdən çıxarıb. Dəstə üzvlərindən biri etiraf edib ki, bu qızılları dəstənin digər üzvləri oğurlamasın deyə, burada gizlədib. Oğurluq zinət əşyalarının dəyəri 50 min lirə müəyyən edilib. Polis əməkdaşları əhaliyə xəbərdarlıq edib ki, evdən çıxarkən mənzillərin qapılarını mütləq açarla bağlasınlar. Dəstə üzvləri barəsində müxtəlif bölgələrdə 19 oğurluq faktı ilə bağlı ümumilikdə 26 cinayət işi açılıb.

**Məlahət**

## "Nar" abunəçiləri "Asan İmza" xidmətinin etibarlılıq müddətini SMS vasitəsilə uzada bilərlər




**İyulun 9-dan başlayaraq "Asan İmza" xidmətini istifadə edən "Nar" abunəçiləri mövcud SIM kartı dəyişmədən xidmətinin etibarlılıq müddətini SMS vasitəsilə uzada bilərlər.**

Bunun üçün abunəçilər "8500" qısa nömrəsinə uyğun açar sözündən ibarət SMS göndərməlidir.

Qeyd edək ki, "Asan İmza" xidmətli SİM kartın SMS vasitəsilə uzadılması kifayət etmir. Eyni zamanda "Asan İmza" sertifikatlarının müddətinin bitməsinə 30 gün qalmış istifadəçilərdən vergi ödəyicisinin e-taxes.gov.az vahid İnternet portalında onlayn şəkildə "Asan İmza" sertifikatlarını növbəti 3 il müddətinə uzatmaq tələb olunur. "Asan İmza" sertifikatının etibarlılıq müddəti bitdikdən sonra onun onlayn rejimdə uzadılması mümkün olmayacaq və istifadəçi sertifikatı yeniləmək üçün Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti nəzdində Asan Sertifikat Xidmətləri Mərkəzinə (ASXM) fiziki olaraq müraciət etməli olacaqdır.

"Asan İmza" xidmətinin etibarlılıq müddəti haqqında məlumat əldə etmək üçün "8500" qısa nömrəsinə "status" açar sözünü SMS vasitəsilə göndərmək lazımdır.

Abunəçi "Asan İmza" xidmətinə ilk dəfə qoşulmaq üçün "Nar" Xidmət Mərkəzinin təmsilçilərinə müraciət edərək, tələb olunan ödənişi həyata keçirməklə müvafiq xidmətə 3 il müddətinə qoşula bilər. Hər hansı səbəbdən Asan İmza xidmətini ləğv etmiş (o cümlədən müvafiq nömrə ilə bağlı münasibətlərə xitam verilmiş, nömrənin təkrar həmin və ya başqa abunəçinin istifadəsinə verilməsi halları da daxil olmaqla) abunəçilərə, SMS xidmətindən istifadə etməklə "Asan İmza" xidmətini növbəti müddətə aktiv etmək mümkün olmayacaq.

## TƏKRAR HƏRRACLARIN KEÇİRİLMƏSİNƏ DAİR ELANLAR

Şəmkir rayon İcra Şöbəsinin 03.05.2021-ci il tarixli, 34081/2019-12 saylı sifarişi ilə, Şəmkir rayonu, Təzəkənd kəndində yerləşən 0,06 ha torpaq sahəsinə dair 09 iyul 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş təkrar hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin torpaq sahəsi satış qiyməti olan 4.320 (dörd min üç yüz iyirmi) manatdan 30% aşağı, yəni 3.024 (üç min iyirmi dörd) manata olmaqla təkrar (sonuncu) açıq hərraca çıxarılmışdır.

Təkrar (sonuncu) hərrac 22 iyul 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 151 (bir yüz əlli bir) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

**QEYD:** Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) iş günü qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır. 1) Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq); 2) Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd; 3) Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

4) Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;

5) Torpaq sahələri hərracı üzrə xarici, hüquqi və fiziki şəxslər hərraca buraxılmırlar;

6) Hərracın iştirakçılarına onların hərracda iştirakı statusunu əldə etməsini müəyyənləşdirən bilet verilir;

7) şəxs hərracda iştirak etmək üçün ərizənin qəbulu başa çatanadək təşkilatçıya yazılı formada müraciət etməklə, öz ərizəsini geri götürə bilər;

8) Ərizənin geri götürülməsi hərracın şərtlərinə uyğun olduqda, ödənilmiş beş məbləği 2 (iki) iş günü ərzində geri qaytarılır.

9) Hərracda iştirak edən, lakin onu udmayan şəxslərin behi 2 (iki) iş günü müddətində geri qaytarılır;

10) Hərracda iştirak etmək hüququ əldə etmiş şəxslərə "sifarişçi" və (ya) "təşkilatçı" tərəfindən satışa çıxarılan əmlakla tanış olmaq imkanı yaradılır;

11) Qalib gəlmiş şəxs qanunvericiliyə uyğun tərtib edilmiş protokolu hər hansı üzürlü səbəbi olmadan imzaladıqda, yaxud əmlakın dəyərini ödəməkdən imtina etdikdə verilən beh geri qaytarılmır. Hərracın qalibi hərracın yekunları barədə protokolun tərtib edildiyi vaxtdan ən geci 3 (üç) iş günü ərzində ödəməli olduğu pul vəsaitini "sifarişçi" icra qurumunun depozit hesabına köçürməlidir.

**Hərracın təşkilatçısı "Əmlak Hərrac Mərkəzi" MMC**

**Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.**
**Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56 e-mail: info@e-herrac.com**
*rəsmi internet saytı: e-herrac.com*


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)
**-Mobil telefonların təmiri** (3 ay)
**-KOMPYUTER** (1-3 AY)
**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)
**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)
**-Dizayn** (3-6ay)
**-Masaj** (3 ay)
**-Biçmə - Tikiş** (3 ay)
**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**
**Mob: (070) 241-28-67**

**www.az-baku.com**



Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.
**Telefon: 447-32-41 538-44-50, internet 538-44-15, İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1209



# Oğruların tualetindən qızıllar çıxdı

*Əməliyyatçılar zinət əşyalarını çətinliklə dəlikdən çıxarıb*



**8 nəfərlik oğru dəstəsi 2 ay davam edən axtarışlardan sonra, nəhayət yaxalanıb.**

"Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, xüsusi əməliyyat keçirən polis İstanbul və Adanada 5 ünvana basqın edərək dəstə üzvlərini zərərsizləşdirib. Əməliyyat zamanı oğru dəstəsinin 50 min lirə dəyərində qızıl-zinət əşyasını unitazın içində gizlətdiyi məlum olub.

*(Davamı səh: 15-də)*

**Məlahət**

# Yeni bitki növü kəşf edilib

*Onlar daha çox pinqvinlərin çoxaldığı ərazilərdə olur*



**Hindistanlı alimlər Antarktidada pinqvin nəcisindən qidalanan yeni bir bitki növünü kəşf ediblər.**

"Şərq" "Ntv.com"a istinadən xəbər verir ki, bitkiyə "Bryum Bharatiensis" adı verilib. Qitədə altı aylıq bir ekspedisiya təşkil edən alimlər Hindistanın Antarktida Tədqiqat Stansiyası (Bharati) yaxınlığında tünd yaşıl bitki növlərini aşkar ediblər. Bitkilərin həyatda qalması üçün kaliuma, günəş işığına və suya ehtiyac duyduqlarını bildirən elm adamları vurğulayıb ki, əsas problemin sözügedən bitkinin bu bölgədə necə yaşamasıdır. Tədqiqata əsasən, adıçəkilən bitki növü daha çox pinqvinlərin çoxaldığı ərazilərdə olur. Araşdırma qrupunda yer alan professor Feliks Bast bölgədə böyüyən bitki növlərinin azot tərkibli pinqvin nəcisi ilə sağ qaldığını dilə gətirərək, bu bitkinin yeni bir yosun növü olduğunu təsdiqləyib.

**Yeganə**

# İndi də "Zika" virusu

Hindistanda 14 nəfərdə təsbit edildi



**"Zika" virusu ilk dəfə, 28 iyunda baş ağrısı, yüksək temapratur şikayətiylə xəstəxanaya müraciət edən 24 yaşlı hamilə bir qadında müşahidə edilib.**

İnsanlar "Zika" virusuna "Aedes aegypti" növlü ağcaqanadın sancmasından sonra yoluxur. Bu virusa, ilk dəfə 1947-ci ildə Uqandanın Zika meşələrindəki meymunlarda rast gəlinmişdi. Yüksək temapratur, gözlərdə qızarma, qusma, baş, əzələ və oynaq ağrıları xəstəliyin əlamətidir. Onun xüsusi bir müalicəsi və önləyici peyvəndi yoxdur.

# 1 ton 300 kiloqramlıq öküz 35 min lirədən satışa çıxarılıb



**Türkiyənin Yozqat şəhərində fermer Abdullah Çakarın bəslədiyi 1 ton 300 kiloqram ağırlığındakı "Çakırbey" adlı öküz, 35 min TL-dən Qurban Bayramı üçün satışa çıxarılıb.**

"Çakırbey"-ə 2 ildir uşaq kimi baxdığını ifadə edən Abdullah Çakar deyib ki, bəslədiyi heyvanları "birinci sinif" etməyə çalışır.



# Dəhşətli qətlin detalları bəlli oldu

*Körpələrə əvvəl siçan zəhəri veriblər*





**Bir neçə gün öncə Ankaranın Mamak bölgəsində öz qızı və iki nəvəsini tapança ilə qətlə yetirib, sonra da özünü vuran 53 yaşlı Öznur Aydın cinayətində dəhşətli detallar üzə çıxıb.**

Ağır yaralanaraq xəstəxanaya qaldırılan Ö.Aydın həkimlərin səyi ilə həyata qaytarılıb. Polisə ilk ifadəsini verən qadın deyib ki, qızı Məryəm ailəsində yaşadığı problemlər üzündən ata evinə gəlib. Ana ilə qızı birlikdə intihar etmək istəyib, bunun üçün də siçan zəhərindən istifadə etmək qərarına gəliblər. 2 körpənin anası Məryəm övladlarının yetim qalacağı düşüncəsiylə onları da həyatdan məhrum etmək qərarına gəlib. Ana və qız körpələrin əmzik şüşəsinə siçan zəhəri töküb. Sonra özləri də zəhər içib. Zəhərin necə təsir edəcəyini bir müddət gözləyiblər. Zəhərin təsirinin azlığını gördükdə, Məryəm övladlarını silahla qətlə yetirib. Sonra da özünü vurub. Ana Öznur Aydınsa guya, bu mənzərəyə dözməyərək o da silahla özünü vurub. Bu, Öznur Aydının dedikləridir. Müdhiş cinayət törədildiyi gün isə Məryəm və iki övladının Ö.Aydın tərəfindən öldürüldüyü bildirilmişdi. Əmniyyət müdiriyi istintaq araşdırmalarını davam etdirir. İstintaq Məryəmin odlu silahdan istifadə edib-etmədiyini əlində və qolunda barıt izi olub-olmadığı ilə müəyyən edəcək.

**Məlahət**

# Sualtı şəhər...

*Dünyanın ən dərin hovuzu istifadəyə verilib*





**Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) dünyanın ən dərin hovuzu olan "Deep Dive Dubai" açılıb. Dubayın "Nad Al Sheba" bölgəsində yerləşən hovuz 60 metr dərinlikdədir və 6 olimpiya üzgüçülük hovuzuna bərabər 14 milyon litr su tuta bilər.**

"Şərq" türk mediasına istinadən bildirir ki, hovuz müştərilərin yeni bir dünya kəşf etməsinə imkan verən sualtı şəhəri ilə diqqət çəkir.

"Deep Dive Dubai"nin ən diqqət çəkici xüsusiyyətlərindən biri də batmış şəhərdir. Müştərilər tərk edilmiş bir küçə, mənzil, qaraj və digər maraqlı xüsusiyyətlərlə tamamlanan bir sualtı dünyasını kəşf edə biləcəklər. Bundan əlavə hovuza gələnlərə pulsuz olaraq üzmə və müxtəlif kurslara yazılma imkanları təqdim ediləcək. "Deep Dive Dubai"nin digər xüsusiyyətləri arasında iki sualtı yaşayış sahəsi və hovuzun bütün bucaqlarını əhatə edən 56 sualtı kamera, sualtı səs və işıqlandırma sistemi yer alır. Səlahiyyətlilər hovuz suyunun 6 saatdan bir süzüldüyünü və temperaturun 30 dərəcədə sabit qaldığını açıqlayıb. Məkanda media redaktə otağı və video divar ilə birlikdə bölgənin ən böyük sualtı film studiyası da yerləşir.

**Yeganə**




# 15 min ödəyəcək

Oğluna dərs keçməyə müəllim axtarır

**Aktyor Burak Özçivit və Fahriye Evcen oğulları Karana müəllim axtarır.**

Karanın təhsilinə önəm verən cütlük, 15 min türk lirəsi (təqribən 2 min 940 azn) qarşılığında Karan üçün məktəbəqədər hazırlıq müəllimi seçimlərinə başlayıb.(axşam.az)

Bildirilib ki, Fahriye Evcen hələ görüşə gələn namizədlər arasından istədiyi şəxsi tapa bilməyib.

*Qeyd edək ki, Karanın 2 yaşı var.*